QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 154 (5874) **27 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Regionların sosial-iqtisadi inkişafı xüsusi diqqət mərkəzindədir

*Prezident İlham Əliyevin dövlət başçısı kimi regionların sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işlər bölgələrin simasını büsbütün dəyişib*

Səh 2



3

İran məktəblərində Azərbaycan dili tədris olunacaq



7

"Yerevan Today": Paşinyan nüfuzdan düşüb!




8

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Masallı Olimpiya İdman Kompleksində gənclərlə görüş keçirilib



# Regionların sosial-iqtisadi inkişafı xüsusi diqqət mərkəzindədir

*Prezident İlham Əliyevin dövlət başçısı kimi regionların sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işlər bölgələrin simasını büsbütün dəyişib*



***Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı kimi regionların sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işlər bölgələrin simasını büsbütün dəyişib. Bölgələrin hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin və əvvəlki dövlət proqramlarının məntiqi davamı olan III Dövlət Proqramı ölkənin ardıcıl və dayanıqlı iqtisadi inkişafının təmin olunmasına və regionların uğurlu inkişafına əhəmiyyətli töhfəsini verdi. Sözün əsl mənasında, regionların simasını köklü surətdə dəyişdi. Regionların indiki vəziyyəti 16 il bundan əvvəlki vəziyyətindən, həqiqətən, fundamental dərəcədə fərqlənir.***

Bütün bunlar təsdiq edir ki, Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayır. Prezidentin mütəmadi olaraq, bölgələrə səfərləri, verdiyi tapşırıqların icrası ilə yerində maraqlanması, tövsiyə və göstərişləri və yerlərdə vətəndaşlarla səmimi görüşləri də bunun əyani sübutudur. Dövlət başçısı tərəfindən həyata keçirilən siyasətin əsas məqsədi paytaxt Bakı ilə yanaşı, bölgələrin də hərtərəfli inkişafının təmin edilməsidir. Bunun nəticəsidir ki, bölgələr tarazlı şəkildə inkişaf edir, yeni-yeni infrastrukturlar qurulur, asfalt yollar çəkilir, körpülər tikilir, ucqar kəndlər qazlaşdırılır və infrastruktur daha da yaxşılaşdırılır. Deməli olar ki, kənd yerlərində mövcud olan köhnə yolların böyük hissəsi təmir olunub və yüksək standartlar səviyyəsinə qaldırılıb. Bütün bunlar da həm əhalinin rifahının yaxşılaşmasına, həm də iqtisadiyyatın dinamik inkişafına çox müsbət təsir göstərir. Eləcə də, regionlarda yeni müəssisələr - sənaye məhəllə parkları, zavod-fabriklər, aqroparklar yaradılır ki, bu da insanların işlə təminatında vacib rol oynayır. Təbii ki, bu amil əhalinin sosial rifah halının daha da yüksəlməsi ilə müşayiət olunur. Hazırda bu proses davam etməkdədir. Bir zamanlar iş dalınca paytaxta üz tutanlar indi rayona və kəndə geri qayıdırlar. Çünki yeni müəssisələrin sayı artdıqca, iş yerləri də artır və işçi qüvvəsinə tələbat yaranır.

Ölkədə sosial həyatın daha da yaxşılaşmasında, bölgələrin simasının əhəmiyyətli dərəcədə dəyişərək yeni proqressiv çalarlar almasında aparılan sistemli dövlət siyasətinin mühüm rolu var. İstehsal müəssisələrinin fəaliyyətinin bərpası və yeni sənaye obyektlərinin istifadəsi, o cümlədən, bölgələrin yerli və ənənəvi istehsal gücündən yararlanmaq, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılması, sahibkarların fəaliyyətinin daha da stimullaşdırılması istiqamətində atılan addımlar, investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin olması və digər kompleks tədbirlərin görülməsi bu gün bölgələrin inkişafını daha da sürətləndirib.

İyulun 31-də Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən sosial-iqtisadi sahəyə aid müşavirədə dövlət başçısı bu məsələyə toxunarkən, vurğulayıb ki, artıq ölkədə qazlaşdırmanın səviyyəsi 96 faizə yaxınlaşır. Nadir ölkələrdə bu qədər qazlaşdırma aparılır. Elektrik enerjisi ilə bağlı böyük generasiya gücləri yaradılıb və Azərbaycan bu baxımdan, yenə də ön sıralardadır. Həm elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su sahələrində, həm də suvarma layihələrinin icrası istiqamətində bir çox işlər görülüb və gözəl nəticələr var: "Biz öz enerji təhlükəsizliyimizi təmin edə bilmişik. Bu il mövcud stansiyalarda aparılan yenidənqurma işləri nəticəsində, əlavə generasiya gücü əldə ediləcək. Bütün bölgələrimizdə içməli su layihələri icra edilir və bu il də bir neçə şəhərin içməli su problemi həll olunacaq. Buna da, çox böyük diqqət göstərilir. Hər il təxminən 100 min hektar torpağın suvarılması ya yaxşılaşır, ya da suvarılmayan torpaqlara su çəkilir. Bu da çox önəmli məsələdir və bu məsələ ilə bağlı əlavə addımlar atılacaq".

Onu da əlavə edək ki, dövlət başçısının tapşırığına uyğun olaraq, regionlarda iş yerlərinin açılması və məşğulluğun təmin olunması istiqamətində kənd təsərrüfatı üçün də vacib olan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər aparılır. Regionlarda 51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb. Artıq nəticələr də var. 22 aqropark, faktiki fəaliyyətdədir, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələrin icrası nəticəsində, ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaq. Eyni zamanda, bu layihələrin icrası nəticəsində, 4 mindən çox yeni iş yeri açılacaq.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının əsas məqsədlərindən biri də, məhz sosial sahədə layihələrin həyata keçirilməsi idi. Bu sahədə də böyük həcmdə işlər görülüb. Belə ki, regionlarda 3 mindən çox məktəb yenidən tikilib və ya əsaslı şəkildə təmir olunub. İki ildir ki, artıq yeni yanaşma da mövcuddur - modul tipli məktəblərin tikintisinə də başlanılıb. Bununla yanaşı, yeni xəstəxanalar və idman komplekslərinin inşası da davam etdirilir.

Göründüyü kimi, regionların inkişafını özündə ehtiva edən dövlət proqramlarının vaxtında və yüksək səviyyədə icra olunması Azərbaycanın ümumi iqtisadi gücünü artırmaqla yanaşı, istehsal müəssisələrinin fəaliyyətinin bərpasına, yeni istehsal müəssisələrinin yaradılmasına, regionların inkişafı üçün zəruri infrastrukturun qurulmasına, aqrar sektorda islahatların sürətləndirilməsinə yol açıb. Hazırda regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramının icrası uğurla davam etdirilir. Prezident İlham Əliyev keçirdiyi son müşavirədə bu sənədi çox genişmiqyaslı proqram adlandırıb: "Bu ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı üzrə IV Dövlət Proqramı qəbul edilib. Bu, çox genişmiqyaslı proqramdır. Baxmayaraq ki, son illərdə infrastruktur layihələri ilə bağlı bir çox işlər görülmüşdür, bu günə qədər həllini tapmayan məsələlər də bu proqramın icrası nəticəsində öz həllini tapacaq".

Nəzərdə tutulan sosial infrastruktur layihələrinə gəlincə isə, Prezident vurğulayıb ki, bu il onlarla məktəb tikiləcək, 10 şəhərdə mərkəzi xəstəxana yenidən qurulacaq, yaxud da əsaslı təmir olunub istifadəyə veriləcək. Olimpiya idman kompleksləri inşa olunacaq. Digər sosial infrastruktur layihələrinin icrası ilə bağlı da konkret proqramlar, planlar var və bütün bunlar Dövlət İnvestisiya Proqramında öz əksini tapır.

İlkin hesablamalara görə, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası üçün, ən azı, 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir. IV Dövlət Proqramında kənd təsərrüfatı və sənaye istehsalı xüsusi yer tutur. Çünki həyata keçirilən infrastruktur layihələrinin böyük hissəsi başa çatdığı üçün iqtisadiyyatın real sektoru, kənd təsərrüfatı və sənaye potensialının gücləndirilməsi əsas məsələlərdən biridir.

Bir sözlə, həyata keçirilən dövlət siyasətinin əsasını Azərbaycanın, o cümlədən, onun bölgələrinin daha gözəl, daha qüdrətli, insanların isə daha xoşbəxt və firavan yaşamasına xidmət təşkil edir. Reallaşdırılan dövlət proqramları regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayır.

***"Səs" Analitik Qrupu***

## Rəsmi xronika

Prezident İlham Əliyev Moldova Prezidenti İqor Dodona təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident. Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizi və bütün Moldova xalqını səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Moldova arasındakı ənənəvi dostluq münasibətləri, ölkələrimizin ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir. Sizə möhkəm cansağlığı və uğurlar, dost Moldova xalqına isə sülh və tərəqqi diləyirəm".

***

Prezident İlham Əliyev "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2014-cü il 3 fevral tarixli 100 nömrəli və "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 16 fevral tarixli 386 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1642-VQD nömrəli Qanununun tətbiqi və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1637-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1666-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

# Mehriban Əliyeva ailə, dəyərlər və xoşbəxtlik haqqında

***Avqustun 26-sı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Birinci xanım Mehriban Əliyevanın ad günüdür. Bu münasibətlə Trend İnformasiya Agentliyi Birinci vitse-prezident Mehriban xanım Əliyevaya müraciət edərək, ondan özü, fəaliyyəti, ailəsi, onun həyati dəyərləri barədə danışmasını xahiş edib. Mehriban Əliyevanın Trend-ə göndərdiyi məktubu AZƏRTAC oxuculara təqdim edir.***



- Əvvəlcə, bu günlərdə mənə ünvanlanmış təbriklərə görə hamıya ürəkdən dərin minnətdarlığımı bildirirəm. Sizin səmimiyyət və mehribanlığınız, dəstək və sevginiz məni dərindən təsirləndirib. Sadə əməyimi qiymətləndirən, ideallarıma inanıb onu bölüşən hər kəsə minnətdaram. İstər ictimai, istərsə də dövlətçilik fəaliyyətimdə daim çalışıram ki, sarsılmaz həqiqətlərə söykənim. Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir.

Mən ənənəvi dəyərlərin əsas götürüldüyü Azərbaycanın ziyalı ailəsində dünyaya göz açıb, boya-başa çatmışam. Bizi, gənc nəsli böyüklərin nüfuzunun və davranışının ən yaxşı nümunə olduğu, ailənin hər bir kiçik üzvünə üzərinə düşən məsuliyyəti daşımağın öyrədildiyi böyük və möhkəm ailədəki ab-hava formalaşdırıb.

Yaşa dolduqca böyükləri, valideynləri anlamağa başladım, onlara sonsuz minnətdarlıq hissi duydum. Çünki onlar həqiqətə və mənəviyyata can atmağı öyrətdilər. Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət - həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur.

Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi. O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam dünya şöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalırdı. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi. Anamı itirdiyim vaxtdan artıq 27 il ötür. Onun yoxluğunu hər zaman hiss edirəm.

Atam akademik Arif Paşayev mənim üçün insanlıq, xeyirxahlıq və müdriklik idealıdır. Onun elm və təhsil sahəsindəki nailiyyətləri haqqında çox yazılıb. Atamın insani keyfiyyətləri - onun tükənməz nikbinliyi, başqalarının dərdinə şərik olmaq, onları dəstəkləmək, hamı ilə dil tapmaq xüsusiyyəti, öz müsbət enerjisini ətrafındakı bütün insanlarla bölüşmək istedadı, müdrikliyi və sonsuz xeyirxahlığı mənim həyat amalımdır. O, uzun illərdir ki, Milli Aviasiya Akademiyasına rəhbərlik edir. Tələbələrlə rektor arasında qarşılıqlı hörmət, isti yoldaşlıq münasibətləri atamın yüksək şəxsi və peşəkar keyfiyyətlərinə daha bir sübutdur.

Xoşbəxtəm ki, həyatımın böyük hissəsini müasir Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin yanında yaşamışam. Bu nəhəng şəxsiyyətə hədsiz ehtiram, heyranlıq, pərəstiş və sevgi hissini ömrümün sonunadək yaşadacağam. Heydər Əliyev güc və qüdrət, hədsiz intellekt, mətin iradə, yüksək əxlaq və ləyaqət, sonsuz vətənpərvərlik, doğma torpağa və xalqa məhəbbət rəmzidir. O, əlçatmaz ideal və mənim həyatımda əsas Müəllimdir.

Ailə mənim üçün, düşünürəm ki, elə hər kəs üçün istənilən şəraitdə həyatın əsas mənası və stimulu, istinad nöqtəsi və güc mənbəyidir.

Həyat yoldaşım Prezident İlham Əliyev 16 ildən çoxdur ki, xalqımıza xidmət edir. Azərbaycanın qüdrətli, uğurla inkişaf edən, bütün dünyada nüfuz qazanan və bizim - müstəqil Azərbaycan vətəndaşlarının haqlı olaraq qürur duyduğu bir ölkə olması istiqamətində onun bütün nailiyyətləri öz xalqına təmənnasız sevgi və sədaqətinə əsaslanır. Onun başlıca missiyası - hər zaman və hər yerdə Vətənimizin maraqlarını qorumaqdır.

O, bu son dərəcə çətin yolda nədən güc alır? İlk növbədə, öz xalqının dəstəyindən, inamından və sevgisindən.

İnanıram ki, xoşbəxt şəxsi ailə həyatı, sevgi və qarşılıqlı hörmət ab-havası da burada əvəzolunmaz rol oynayır.

Mən öz övladlarımla fəxr edirəm. İlk növbədə, ona görə ki, onlar nəcib və ləyaqətli insan kimi böyüyüblər. Onların hərəkətlərinə görə heç vaxt utanc və məyusluq hissi keçirməmişəm. Çünki Leyla, Arzu və Heydər öz işinə, təhsilinə ciddi və məsuliyyətlə yanaşır, ailə ənənələrini yüksək tutur, hörmət bəsləyir, onların dəqiq mənəvi amalları var. Xoşbəxtəm ki, övladlarım xeyirxah və başqalarının dərd-sərinə biganə qalmayan insanlardır. Mən onlara inanıram, çünki dürüstlük və ləyaqətlə yanaşı, bu həyatda ən yaxşı bələdçi - insanlıq və şəfqətdir.

Mən nadir hallarda müsahibə verirəm və özüm haqqında danışmağı xoşlamıram. Həyatım elə gətirib ki, mən ictimai şəxsiyyətəm, lakin heç vaxt tanınmağa, məşhur olmağa can atmamışam. Əgər hansısa nəticələr əldə etməyə nail oluramsa, fəaliyyətim fayda gətirirsə, ölkəyə və insanlara xidmət edirəmsə, yardıma ehtiyacı olanlara kömək etməyi bacarıramsa - bu, mənim üçün ən yüksək mükafatdır.

Gərəkli və faydalı olmaq, insanların sənə inanması və səni dəstəkləməsi xoşbəxtlikdir. Xoşbəxtlik vicdan və niyyətin təmiz olması, sevgi və xeyirxahlığın həyatın əsas qayəsinə çevrilməsidir.

Şübhəsiz ki, hər bir uğur və nailiyyət komanda işindən asılıdır. Fəxr edirəm ki, bütün bu illər ərzində mənimlə çiyin-çiyinə parlaq, istedadlı, məqsədyönlü, zəhmətsevər, həssas insanlar mənim məsləkdaşlarım, həmfikirlərim olublar. Onların hamısına - uzun illər ərzində işlədiyim hər kəsə, bizim layihələrə və təşəbbüslərə heç olmasa bircə dəfə qoşulanlara dərin təşəkkürümü və ehtiramımı bildirirəm.

Ən yaxşı xüsusiyyətlərini əsrlər boyu qoruyub saxlamaq istedadına, qəhrəmanlığına, doğma torpağa sədaqətinə, xeyirxahlığına və qəlbinin genişliyinə görə Azərbaycan xalqına, ölkəmizin hər bir vətəndaşına səmimi qəlbdən minnətdarlığımı bildirirəm!

Qoy, Uca Allah hər birinizi və bizim gözəl Vətənimizi qorusun!

Sevgi və səmimiyyətlə, sizin Mehriban Əliyeva.

## Vladimir Putin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı təbrik edib



Rusiya Federasiyasının Prezidenti Vladimir Putindən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu gəlib.

Təbrikdə deyilir:

"Hörmətli Mehriban Arif qızı. Ad gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin. Siz yüksək dövlət vəzifələrində çoxillik fəaliyyətinizlə həmvətənləriniz arasında layiq olduğunuz hörmət və böyük beynəlxalq nüfuz qazanmısınız.

Sizi Rusiyanın böyük dostu, dövlətlərimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinin prinsipial tərəfdarı kimi tanıyırıq. Əminəm ki, bu münasibətlər Rusiya və Azərbaycan xalqlarının mənafeyi naminə, regional sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi maraqlarına uyğun olaraq bundan sonra da məhsuldar şəkildə inkişaf edəcək.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və uğurlar arzulayıram. Ailənizə səmimi salamımı çatdırmağı xahiş edirəm".

## Dmitri Medvedev Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı təbrik edib



Rusiya Federasiyası Hökumətinin Sədri Dmitri Medvedevdən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya təbrik məktubu gəlib.

Təbrikdə deyilir:

"Hörmətli Mehriban Arif qızı. Ad gününüz münasibətilə Sizə Rusiya Federasiyasının Hökuməti adından və şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Dost Azərbaycanın qarşısında duran irimiqyaslı sosial-iqtisadi vəzifələrin həllində Sizin mühüm rolunuzu xüsusi qeyd etmək istəyirəm. BMT-nin və UNESKO-nun xətti ilə böyük beynəlxalq mədəni və humanitar təşəbbüslərin həyata keçirilməsində Sizin fəal iştirakınız hörmət hissi doğurur.

Rusiya Federasiyasının yüksək dövlət mükafatı - "Dostluq" ordeni ilə təltif edilməyiniz Sizin Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə verdiyiniz şəxsi töhfənizin təsdiqidir. Əminəm ki, çoxplanlı əməkdaşlığın gələcək inkişafı, bundan sonra da müxtəlif sahələrdə perspektivli birgə layihələrin həyata keçirilməsi Rusiya və Azərbaycanın maraqlarına tamamilə cavab verir.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi qəlbdən cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və bütün təşəbbüslərinizdə yeni-yeni uğurlar arzulayıram".

## İran məktəblərində Azərbaycan dili tədris olunacaq



Cari tədris ilindən İranın Şərqi Azərbaycan vilayətinin orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisinə başlanılacaq. AZƏRTAC xəbər verir ki, 2017-ci ildə ikinci dəfə prezident seçilən Həsən Ruhani Təbrizdə yerli əhali ilə keçirdiyi seçkiqabağı görüşündə Şərqi Azərbaycan vilayətindəki məktəblərdə Azərbaycan dilinin tədris olunacağı barədə söz verib. Prezident seçicilərinə verdiyi sözü tutaraq Azərbaycan dilinin tədrisinə icazə verib.

Vilayətin rəhbəri Cəfər Paşai bildirib ki, Təhsil nazirinin əmrinə əsasən, orta məktəblərdə şagirdlərə həftədə 2 dəfə Azərbaycan dili tədris olunacaq.

# Birinci vitse-prezident Mehriban Əliyeva körpələr evi-uşaq bağçalarının açılışlarında və balacaların şənliyində iştirak edib

***Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva paytaxtın Sabunçu rayonunda 260 saylı, Binəqədi rayonunda 141 saylı körpələr evi-uşaq bağçalarının açılışlarında, həmçinin valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Heydər Əliyev Fondunun "Dalğa Beach" istirahət mərkəzində təşkil etdiyi növbəti əyləncə və istirahət proqramında iştirak ediblər.***



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva əvvəlcə paytaxtın Sabunçu rayonunda 260 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak etdilər.

Bu körpələr evi-uşaq bağçası 1937-ci ildən fəaliyyət göstərir.









Bağçanın köhnə binası ötən ilin noyabrında sökülüb, yerində Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa olunub. Yeni bina 140 yerlik olmaqla, 7 qrupdan, musiqi-idman zalından, mətbəx, tibb otağı, camaşırxana və digər köməkçi otaqlardan ibarətdir. Bağça zəruri inventarla, mebel dəstləri ilə təchiz edilib. Ümumi sahəsi 2000 kvadratmetrdən çox olan bina havalandırma və yanğından mühafizə sistemləri ilə təchiz edilib.

Gələcəyimiz olan uşaqların xoşbəxt böyümələri, onların həm fiziki, həm də mənəvi cəhətdən sağlam olmaları işinə Azərbaycan dövləti xüsusi diqqət göstərir. Dövlət səviyyəsində bu istiqamətdə icra olunan layihələrə Heydər Əliyev Fondunun töhfələri də xüsusi əhəmiyyətə malikdir. Fondun təşəbbüsü və dəstəyi ilə indiyədək paytaxtla yanaşı, bölgələrimizdə də çoxsaylı körpələr evi-uşaq bağçası inşa edilib, təmirə ehtiyacı olanlar isə müasir səviyyədə yenidən qurulub.

260 saylı körpələr evi-uşaq bağçasının ərazisində geniş abadlıq-quruculuq işləri aparılıb, uşaqların asudə vaxtının səmərəli təşkili üçün müvafiq şərait yaradılıb.

***

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva paytaxtın Binəqədi rayonundakı 141 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak etdilər.

Körpələr evi-uşaq bağçası üçün bina Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir edilib. Bina bağça kimi 1980-ci ildə ilk dəfə fəaliyyətə başlayıb və indiyədək təmir edilməmişdi. Beş min kvadratmetrdən çox ərazisi olan 3 korpusdan ibarət körpələr evi-uşaq bağçası təmirdən əvvəl 8 qrupda 150 uşağa xidmət göstərirdi. Yeni binada isə 210 yerlik körpələr evi-uşaq bağçası fəaliyyət göstərir. Burada komplektləşdirilmiş qrup otaqları, mətbəx və yeməkxana, idman və musiqi zalları və digər otaqlar var.






**Ardı Səh. 5**

# Birinci vitse-prezident Mehriban Əliyeva körpələr evi-uşaq bağçalarının açılışlarında və balacaların şənliyində iştirak edib



Əvvəli Səh. 4

İkimərtəbəli məktəbəqədər təhsil müəssisəsinin otaqları və dəhlizləri uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarlarla, mebel dəstləri ilə təchiz edilib. Məktəbəqədər təhsil müəssisəsində yeddisi Azərbaycan, dördü isə rusdilli bölmə olmaqla, ümumilikdə, 11 qrup fəaliyyət göstərəcək. Körpələr evi-uşaq bağçasında 2 yaşdan 6 yaşadək uşaqların təlim-tərbiyəsi ilə 42 nəfərdən ibarət peşəkar heyət məşğul olacaq. Bağçanın ərazisində abadlıq işləri görülüb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb. Burada balacaların istirahəti üçün oyun və idman avadanlıqları da var. Bir sözlə, bu müəssisədə uşaqların





rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnmələrini təmin etmək, həmçinin onların bacarıq və istedadlarını aşkara çıxarmaq üçün hərtərəfli lazımi şərait yaradılıb.

***

"Dalğa Beach" istirahət mərkəzində Heydər Əliyev Fondunun təşəbbüsü ilə təşkil olunan tədbirə xüsusi avtobuslarla gətirilən uşaqları nağıl qəhrəmanları qarşıladılar. Nizami, Suraxanı, Xətai rayonlarının uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və 11 saylı inteqrasiya təlimli internat məktəbinin sakinləri bu məkanda unudulmaz anlar yaşadılar.



Şənliyə Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva da qoşuldular.

Balacalara xas olan hədsiz səmimiyyət və sevinclə əylənən uşaq evlərinin sakinləri və xüsusi qayğıya ehtiyacı olan uşaqlar müxtəlif oyunlarda, attraksionlarda iştirak etdilər, isti yay günündə hovuzda üzdülər, onlar üçün hazırlanmış müxtəlif əyləncəli proqramlarla maraqlı vaxt keçirdilər, ətrafdakılarla sevinclərini bölüşdülər.

Xeyriyyəçiliyi, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Heydər Əliyev Fondu növbəti dəfə balacalara unudulmaz anlar yaşatdı. Hər bir uşağa Fondun hədiyyələri təqdim olundu. Şənlikdə, ümumilikdə, 200-dən çox uşaq iştirak etdi.



## Birinci vitse-prezident Mehriban Əliyeva Şeyxülislam Allahşükür Paşazadəni təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəni anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi münasibətilə təbrik edib. SİA xəbər verir ki, Mehriban Əliyeva Allahşükür Paşazadəni mənalı ömrünü İslam dininin əsl mahiyyətinin təbliği və təşviqinə, Qafqazda davamlı sülhün, əmin-amanlığın bərqərar olmasına həsr etmiş görkəmli din xadimi kimi səciyyələndirib. Qeyd edib ki, Şeyxülislam Allahşükür Paşazadə bütün dinlərin əsasını təşkil edən sülhsevərlik, dözümlülük, dinc birgəyaşayış, bərabərlik, qardaşlıq, humanizm kimi dəyərlərin qorunub saxlanılması və cəmiyyətimizdə əsrlərlə mövcud olan tolerantlıq ənənələrinə xalqımızın sadiqliyinin təmin olunması istiqamətində uzun illərdir uğurla fəaliyyət göstərir. Təbrikdə deyilir ki, Qafqaz Müsəlmanları İdarəsi sədrinin ölkəmizdə ayrı-ayrı din və təriqətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin, multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi, Azərbaycanın dünyada tolerantlığın unikal məkanı olaraq şöhrət tapması kimi xoşməramlı niyyətlərə xidmət edən məqsədyönlü işlərə, xalqlar və dinlərarası dialoqun genişləndirilməsinə verdiyi əvəzsiz töhfələr dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib. Fəaliyyətinin ayrı-ayrı illərində müxtəlif mükafatlara, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 avqust tarixli Sərəncamı ilə ölkəmizin ən yüksək dövlət təltifi olan "Heydər Əliyev" ordeninə layiq görülməsi bunun bariz nümunəsidir. Birinci vitse-prezident Mehriban Əliyeva Şeyxülislam Allahşükür Paşazadəyə cansağlığı, firavanlıq, xoşbəxtlik, bütün işlərində və təşəbbüslərində uğurlar arzulayıb.

***Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı ilə Bakıda növbəti dəfə klassik avtomobillərin yürüşü və sərgisi təşkil olunub.***

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın və bir çox tanınmış şəxslərin izlədikləri yürüşdə 1980-ci ilədək istehsal olunmuş avtomobillər iştirak edib. Onların arasında yürüş üçün qeydiyyatdan keçmiş şəxsi nəqliyyat vasitələri, eləcə də Heydər Əliyev Mərkəzində nümayiş etdirilən klassik avtomobil sərgisinin eksponatları sırasında olan nəqliyyat vasitələri də yer alıb. Heydər Əliyev Mərkəzinin qarşısından start götürən yürüşdə 100-dən çox klassik avtomobil iştirak edib. Bu avtomobillərin hamısının olduqca maraqlı tarixi var. Həmin avtomobillər dövrünün müasiri olsa da, zaman keçdikcə onların tarixi dəyəri daha da artır.

Yürüşə gələn tamaşaçılardan Dadaş Ağalarov doğma Bakıda belə tədbirlərin keçirilməsindən məmnun qaldığını bildirib. "Yürüşə kiçik oğlumla gəlmişəm. Oğlum da, mən də avtomobilləri, xüsusilə də retro avtomobilləri çox sevirik. Bu maraqlı tədbirdə ilk dəfədir ki, iştirak edirəm. Çox xoşuma gəldi və sərgi də yüksək səviyyədə təşkil olunub. Düşünürəm ki, retro avtomobillər hər kəsin maraq dairəsindədir. Bu avtomobillər insanda



# Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı ilə klassik avtomobillərin yürüşü və sərgisi keçirilib









nostalji hisslər yaradır. Belə tədbirlərin təşkili avtomobil həvəskarlarının bir yerə toplaşaraq fikir mübadiləsi aparmaları, asudə vaxtlarını səmərəli keçirmələri üçün çox əhəmiyyətlidir", - deyə D.Ağalarov söyləyib.

İştirakçı Rauf Əzizov deyib: "Retro maşınlara 15 ildən çoxdur ki, həvəs göstərirəm. Bu həvəs məndə artıq bir hobbiyə çevrilib. Sərgiyə özümün yığdığım iki maşınla - "Zaporejts" və "Moskviç"lə gəlmişəm. Hazırda Volqa "Qaz-21" avtomobilinin üzərində işləyirəm. Sərgidə nümayiş olunan "Zaporejts" 1965-ci ilin istehsalıdır. "Moskviç" 427 furqon isə bağ həvəskarlarının ən çox sevdiyi maşın idi. Retro avtomobillərin sərgisi və yürüşünün təşkilinin gənclərimizin zərərli vərdişlərdən uzaqlaşaraq sağlam həyat tərzinə cəlb edilməsində böyük rolu var".

## Azərbaycanda klassik avtomobillərə çox böyük maraq var

Yürüş iştirakçısı Vaqif Quliyev tədbirə 1958-ci il istehsalı olan "Zapojets" markalı maşınla qatılıb. "Həmişə Azərbaycan Avtomobil Federasiyasının təşkil etdiyi tədbirlərdə fəal iştirak edirəm. Bu tədbiri alqışlayıram. Klassik avtomobillərin sərgisi və yürüşü zamanı retro avtomobil sahibləri bir araya gəlir, fikir mübadiləsi aparırlar. Avtomobilimdən ancaq belə sərgi və yürüşlərdə istifadə edirəm. Hazırda dostumun xahişi ilə "Moskviç-403" modeli üzərində işləyirəm. Bir sözlə, retro avtomobillər mənim hobbimdir", - Vaqif Quliyev belə deyib.

Klassik avtomobil sahibi olan Zaqatala rayon sakini Azər İmamov 1958-ci il istehsalı olan və babasından ona yadigar qalan "SMZ S-3A" markalı avtomobili üç ilə yığdığını və tədbirə bu avtomobillə qatıldığını bildirib. O qeyd edib ki, avtomobilin detallarını Rusiya, Gürcüstan və başqa ölkələrdən əldə edib. "Tədbir möhtəşəmdir və insanlar böyük həvəslə buraya maşınlara baxmağa gəlirlər", - deyə A.İmamov qeyd edib.

## Sərgi gənclər üçün də maraqlıdır

"Moskviç" klubunun rəhbəri Əlirza Əliyev avtomobillərin yürüşü və sərgisinin böyük bayrama çevrildiyini deyib. "İnsanlar böyük maraqla avtomobillərə yaxınlaşıb tarixi ilə maraqlanırlar. Düşünürəm ki, bu tədbir yaşlı nəslin nümayəndələri ilə yanaşı, gənclər üçün də çox maraqlıdır. Gənclər bu tədbirə böyük həvəslə qatılırlar. Klubumuz bu yaxınlarda fəaliyyətə başlayıb. Gələcəkdə sərgiyə daha çox avtomobillə qatılmağı planlaşdırırıq".

Bu tədbirə şəhər sakinləri ilə yanaşı, paytaxtımıza gələn turistlərin də marağı böyük idi. Klassik avtomobillərin yürüşü və sərgisi şəhərimizin qonaqlarında unudulmaz təəssüratlar yaradıb. Moskvadan gəlmiş Nikolay Timofeyev sərgidə sovet istehsalı olan çoxsaylı retro avtomobillərin olmasından məmnun olduğunu bildirib: "Yürüş, eləcə də burada iştirak edən avtomobillər çox xoşumuza gəldi. Həm bu tədbirdə, həm də ümumiyyətlə, şəhərdə çox səmimi münasibət görürük. Çox yüksək səviyyədə təşkil olunan sərgi klassik avtomobillərə yeni həyat verir".

Paytaxt sakinləri deyirlər ki, bu sərgi və yürüş Bakının həyatında əsl bayramdır. Bu avtomobillər xüsusən onları görməyən gənclərdə daha çox maraq doğurur. Avtomobillər şəhərin müasirliklə qədimiliyin vəhdət təşkil etdiyi mərkəzi küçələri və prospektləri ilə yürüşdən sonra Heydər Əliyev Mərkəzinin parkında nümayiş olunub.

Yürüş-sərgidə "Ford Model A" (1930), "Fiat Balilla" (1933), "Mercedes Benz 220 B Cabrio" (1952), "Chevrolet Corvette" (1960), "Cadillac Eldorado" (1974), "VAZ 21011" - milis (1973), "Qaz 13"- Çayka (1975) və sair kimi nadir nümunələr iştirak edib. Bakı sakinləri və qonaqlar nadir avtomobil modellərini maraqla izləyiblər.

Tədbir çərçivəsində keçirilən klassik geyimlərin müsabiqəsi də tamaşaçılar tərəfindən coşqu ilə qarşılanıb. Klassik avtomobillər və ötən illərin libasları modern Bakıda nostalji ovqat yaradıb.

# "Mehriban xanım Əliyeva Azərbaycanın yüksəlişi naminə Prezident İlham Əliyevin ən yaxın və sadiq silahdaşı adını birinci xanım və birinci vitse-prezident olaraq şərəf və ləyaqətlə daşıyır"



"Bu gün Mehriban xanım Əliyevanın doğum günüdür. Hər kəs üçün anadan olduğu gün sırf şəxsi məsələ olsa da, hesab edirəm ki, tanınmış ictimai-siyasi xadimlərin fəaliyyəti kimi, həyatı da cəmiyyət üçün böyük maraq kəsb edir. Mən böyük məmnuniyyətlə Mehriban xanımı doğum günü münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, işlərində böyük uğurlar arzulayıram. Mehriban Əliyeva müasir Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edən, ölkəmizin inkişafına və tərəqqisinə müstəsna töhfələr verən görkəmli dövlət xadimi kimi tanınır. Həyatımızda müşahidə etdiyimiz bir sıra yeniliklərin, əgər belə demək mümkündürsə "ilk"lərin onun adı ilə bağlı olması Mehriban xanımın möhtəşəm tarixi missiyasından xəbər verir. Azərbaycanda birinci xanım institutunun meydana gəlməsi əslində onun fəaliyyətinin nəticəsidir və məhz elə buna görə də bu institut qısa zamanda cəmiyyətdə yüksək nüfuz və hörmət qazana bilib. Mən deyərdim ki, Mehriban xanımın müəyyənləşdirdiyi birinci xanım standartları tək Azərbaycana xas olan, məhdud coğrafi məkanda fəaliyyət göstərən hadisə deyil. Onun birinci xanım modeli ölkəmizdən kənarda da geniş təsir nümunəsinə malikdir və təlqin edilir". Bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün "facebook" səhifəsində paylaşıb.

Əli Əhmədov bildirib ki, Mehriban xanımın Azərbaycanın ali dövlət idarəçiliyi sistemində yeni olan Birinci vitse-prezident vəzifəsinin yüksək nümunəsini bacarıqla yaratdığını ayrıca vurğulamağa dəyər. Bu keyfiyyətdə Mehriban Əliyevanın misilsiz xidmətlər göstərdiyini hər kəs görür və qiymətləndirir. Azərbaycanın inkişafı, yüksəlişi naminə həyata keçirilən Heydər Əliyev siyasətinin uğurlar qazanmasında Prezident İlham Əliyevin ən yaxın və sadiq silahdaşı adını birinci xanım və birinci vitse-prezident olaraq şərəf və ləyaqətlə daşıyır. Onu da etiraf etməliyəm ki, müasir Azərbaycan qadını obrazı əhəmiyyətli dərəcədə Mehriban xanım Əliyevanın nümunəsində formalaşır. Ayrı-ayrı dövrlərdə Azərbaycan qadınının obrazı qadın tarixi şəxsiyyətlərimizin timsalında və nümunəsində formalaşıb. İndi həmin böyük qadın tarixi şəxsiyyətlərimizin sırasında Mehriban xanımın özünəməxsus yeri və rolu olduğunu görmək və dərk etmək çox qürurludur.

Əli Əhmədov qeyd edib ki, Mehriban xanım Azərbaycanın gözəl və bacarıqlı təmsilçisi və təbliğatçısıdır: "Ölkəmizin tarixinin, mədəniyyətinin, təbiətinin dünyaya tanıdılmasında həqiqətən də misilsiz xidmətlər göstərib və göstərir. Artıq 15 ildir fəaliyyət göstərən Heydər Əliyev Fondunun rəhbəri kimi həyata keçirdiyi layihələr böyük coğrafiyanı əhatə edir, xalqlar və mədəniyyətlər arasında dialoq mühitinin möhkəmlənməsinə töhfələr verir. Onlarla dövlətin və beynəlxalq təşkilatın ali mükafatlarına layiq görülməsi Mehriban xanımın fəaliyyətinin beynəlxalq əhəmiyyətinin və böyük mənasının bariz ifadəsidir.

Mehriban Əliyevanın humanizmi, xeyirxahlığı insanseverliyi, dara düşüb köməyə ehtiyacı olanlara əl uzatması, onlara arxa-dayaq olması ayrıca söhbətin mövzusudur. Onun sayəsində xeyirxahlıq, şəfqət, humanizm kimi dəyərlər tamamilə yeni məzmun və məna kəsb edib. Çox müxtəlif səbəblərdən dara düşən, kömək axtaran insanların müraciət etdiyi ilk ünvan Mehriban xanım Əliyevadır. Ən başlıcası isə odur ki, o müraciətlərin hər birinə böyük həssaslıqla yanaşılır, lazımi köməklik göstərilir. Nə qədər insan birinci vitse-prezidentin və Heydər Əliyev Fondunun prezidentinin qayğısı sayəsində şəfa tapıb, çətinlikdən xilas olub, çox ehtiyac duyduğu qayğı və nəvazişi görüb. Belələri onlarla, yüzlərlə deyil, minlərlə, on minlərlədir.

Mən Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin və yüksək insani keyfiyyətlərinin yalnız beşi haqqında söhbət açdım. Qeyd olunmalı fəaliyyət və şəxsi keyfiyyətləri isə daha çoxdur. Onları insanlarımız çox gözəl bilirlər. Ona görə də Mehriban xanım Azərbaycanın ən çox sevilən, hörmət edilən, inanılan insanlarından biridir. Əminəm ki, böyük xalq sevgisi və Prezidentin dəstəyi sayəsində Mehriban xanım Əliyeva öz tarixi missiyasını daha böyük uğurlarla həyata keçirəcək, daha möhtəşəm nailiyyətlərə imza atacaq.

Doğum gününüz mübarək Mehriban xanım!"

# "Yerevan Today": Paşinyan nüfuzdan düşüb!




"Yerevan Today" xəbər portalı paytaxt küçələrində əhali arasında keçirdiyi sorğudan sonra "Paşinyan xalq arasında nüfuzdan düşüb" adlı yazı dərc edib. Yerevan sakinləri sorğuda bildiriblər ki, son 1 ildə Ermənistanda yaşamaq dözülməz olub.

AZƏRTAC xəbər verir ki, sorğuda iştirak edənlərin 75 faizi yeni hökumətə inanmadığını bildirib. Ermənistanın Vatikandakı keçmiş səfiri, Serj Sarkisyanın kürəkəni Mikayıl Minasyan vətəndaşları Paşinyan əleyhinə üsyana qalxmağa çağırıb. Hazırda xaricdə yaşayan Mikayıl Minasyan yeni hökuməti səriştəsizlikdə ittiham edib. Onun sözlərinə görə, Paşinyan hakimiyyətə əvvəlki hökumət üzvlərindən qisas almaq məqsədilə gəlib. Paşinyan Robert Koçaryanı həbs etdirib. Yaxın günlərdə isə keçmiş müdafiə naziri Seyran Ohanyanın və başqa generalların həbs tapşırığını verəcək. Xatırladaq ki, Mikayıl Minasyanın özünü də həbs gözləyir. Onun adı korrupsiyada hallanır.






# Yeni Azərbaycan Partiyasının Masallı, Cəlilabad, Yardımlı və Biləsuvar rayon ilk təşkilat sədrləri ilə zona müşavirəsi keçirilib





Avqustun 24 -də Yeni Azərbaycan Partiyasının Masallı, Cəlilabad, Yardımlı və Biləsuvar rayon ilk təşkilat sədrləri ilə zona müşavirəsi keçirilib. Müşavirə iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək Ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini,Yeni Azərbaycan Partiyası Sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın uğurla inkişaf etdiyini, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımların atıldığını bildirib. O, bu ilin əvvəlindən dövlətimizin başçısı tərəfindən mühüm sosial islahatların həyata keçirildiyini və bunun nəticəsində ölkəmizdə əməkhaqlarının, təqaüdlərin və sosial müavinətlərin əhəmiyyətli dərəcədə artırıldığını diqqətə çatdırıb.

Bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyən YAP Sədrinin müavini partiyanın bu seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirib. Yeni Azərbaycan Partiyasının böyük gücə və cəmiyyətimizdə yüksək nüfuza malik olduğunu deyən Əli Əhmədov partiyanın siyasətinin xalqımız tərəfindən dəstəkləndiyini söyləyib.

YAP Sədrinin müavini bildirib ki, partiya üzvləri qazanılan uğurları geniş təbliğ etməli, bu işdə sosial şəbəkənin imkanlarından faydalanmalıdırlar. Müstəqil Azərbaycanın inkişafını görmək istəməyən dairələrin, o cümlədən radikal müxalifətin sosial şəbəkələr vasitəsilə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını diqqətə çatdıran Əli Əhmədov bu dairələrin əsl niyyətlərinin ifşa olunmasında gənclərin fəal olmasının vacibliyini vurğulayıb.

YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov partiya həyatı ilə bağlı müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlarını verib.

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Masallı Olimpiya İdman Kompleksində gənclərlə görüş keçirilib



***Avqustun 24-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Masallı Olimpiya İdman Kompleksində gənclərlə görüş keçirilib.***

Görüşdə Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov, YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, millət vəkilləri Hadi Rəcəbli, Nəriman Əliyev və ictimaiyyət nümayəndələri iştirak edib.





Görüş Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Yeni Azərbaycan Partiyasının Masallı Rayon Təşkilatının sədri Seyfəddin Əliyev tədbiri giriş sözü ilə açaraq Yeni Azərbaycan Partiyasının memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini, yeni nailiyyətlərin qazanıldığını bildirib. Azərbaycanı dünya miqyasında idman, multikulturalizm, milli tolerantlıq və bir çox digər sahələr baxımından nümunəvi ölkəyə çevrildiyini qeyd edib.

Daha sonra isə Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov çıxış edib. Əli Əhmədov ölkəmizdə gənclər üçün hər cür həyat şəraitinin yaradıldığını bildirib. Baş nazirin müavini gənclərin Azərbaycanda və ondan kənarda da dövlətimizi və dövlətçiliyimizi müdafiə etdiklərini deyib.





YAP Sədrinin müavini onu da qeyd edib ki, biz gənclərimizə böyük inamla yanaşırıq: "Onların bu günü və gələcəyi üçün Azərbaycan hökuməti böyük işlər görməkdədir. Cənab Prezident İlham Əliyevin apardığı siyasətdə gənclərə çox böyük önəm verilir. Bu gün biz gənclərlə ciddi şəkildə işləyirik, onlarla müxtəlif tədbirlər keçiririk və daha da fəallaşdırırıq ki, Azərbaycanın gələcəyi etibarlı əllərdə olsun. Gənclik eyni zamanda gələcək, müasirlik deməkdir. Biz istəyirik ki, Azərbaycanın gəncləri yaxşı təhsil alsınlar və biliklərə yiyələnsinlər. Mən əminəm ki, cənab Prezident İlham Əliyevin apardığı siyasəti gənclərimiz dəstəkləməklə həmin siyasətin həyata keçməsinə öz töhfələrini verəcəklər".

Sonra Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Milli Məclisin deputatı Nəriman Əliyev çıxış edərək gənclərin fəallığından, rayonun ictimai-siyasi həyatında yaxından iştirak etməklərindən, dövlətə, dövlətçiliyimizə, Prezident Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətə həmişə sədaqətli olduqlarından bəhs edib. Daha sonra idmançılar arenaya çıxıb, öz məharətlərini göstərib. Tədbir incəsənət nümayəndələrinin çıxışları ilə davam edib. Sonda idmançılarla xatirə şəkli çəkilib.

# Şeyxülislam Allahşükür Paşazadə "Heydər Əliyev" ordeni ilə təltif edilib



Prezident İlham Əliyev Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Dövlətimizin başçısı Şeyxülislam Allahşükür Paşazadəni Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xüsusi xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif edib.

# Gənc sərhədçilər Vətənə sədaqət andı içiblər



Dövlət Sərhəd Xidmətinin (DSX) Yevlaxdakı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra mərasim açıq elan edilib.



Andiçmə mərasimində çıxış edən DSX-nin Çevik Hərəkət Qüvvələrinin Komandanı, general-leytenant Ehram Hacıyev Xidmət rəisi, general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb, gənc əsgərlərin dövlət sərhədlərinin etibarlı mühafizəsini şərəflə yerinə yetirəcəklərinə əminliyi ifadə edib. E.Hacıyev ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərini, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılmasını xüsusi qeyd edib. Həmçinin Ermənistanla dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisindən keçən hissəsinin DSX tərəfindən mühafizəyə götürülməsi tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi, səngərdə və sərhəddə sərhədçilərimiz tərəfindən qürurla xidmət aparılması xüsusi vurğulanıb. Valideynlər çıxışlarında yaradılmış şəraitə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər.

Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb. Andiçmə mərasimi başa çatdıqdan sonra valideynlərlə görüş keçirilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycan XİN Abxaziyada keçirilmiş qondarma "prezident seçkiləri" ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın Abxaziya bölgəsində 2019-cu il avqustun 25-də keçirilmiş qondarma "prezident seçkiləri" ilə bağlı bəyanat yayıb. Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda bildirilir ki, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir və 25 avqust 2019-cu il tarixində Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş qondarma "prezident seçkiləri"ni, həmçinin onların nəticələrini tanımır. Azərbaycan Xarici İşlər Nazirliyi Abxaziya məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həlli üçün danışıqların davam etdirilməsinin vacib olduğunu hesab edir.

# Həyatını mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunmasına həsr etmiş Şeyxülislam Allahşükür Paşazadə

## Prezident İlham Əliyev Şeyxülislam Allahşükür Paşazadəyə təbrik ünvanlayıb, onu "Heydər Əliyev" ordeni ilə təltif edib



***Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərib, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirib. O, ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və təbliği sahəsində səmərəli xidmətlər göstərməkdədir. Müxtəlif konfessiyaların dini liderləri arasında böyük nüfuza malik olan Şeyxülislam Allahşükür Paşazadə bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində təmsil olunmaqla, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, ayrı-ayrı etiqadlar arasında qarşılıqlı etimad mühitinin yaradılmasına sanballı töhfələr verir.***

Uzun müddətdir mənəvi-əxlaqi dəyərlərin təbliği işinə mühüm töhfələr verən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin bu il anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin isə 40 illiyi tamam oldu. Təsadüfi deyil ki, aprel ayının 9-da Prezident İlham Əliyev Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə Sərəncam da imzaladı. Eyni zamanda, avqustun 26-da Şeyxülislam Allahşükür Paşazadəyə təbrik ünvanlayan Prezident İlham Əliyev onu "Heydər Əliyev" ordeni ilə təltif edib.

Qeyd edək ki, 1949-cu ildə Lənkəranın Cil kəndində dünyaya gələn Allahşükür Paşazadə uşaqlıq illərində orta məktəbdə oxumaqla yanaşı, cənub bölgəsinin din xadimlərindən, ilahiyyatçı alimlərindən islam dininin əsaslarını mənimsəyib və ilk dini biliklərə yiyələnib.

Allahşükür Paşazadə 1968-ci ildə Buxarada "Mir-Ərəb" mədrəsəsinə daxil olub, buranı bitirdikdən sonra dini təhsilini Daşkənd İslam Universitetində davam etdirib.

1975-ci ildə həmin universiteti bitirərək Azərbaycana qayıdan Allahşükür Paşazadə Qafqaz Müsəlmanları İdarəsinin məsul katibi təyin olunub. 1978-ci ildə isə Təzəpir məscidinin axundu və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini seçilib. 1980-ci ildə isə A.Paşazadə Qafqaz Müsəlmanları İdarəsinin sədri seçilib.QMİ sədri 1986-cı ildən İordaniya Kral Akademiyasının üzvüdür. Şeyxülislam A.Paşazadə Qafqaz Xalqları Ali Dini Şurasının sədri, MDB Dinlərarası Şurasının həmsədri, MDB Müsəlmanları Məşvərət Şurasının sədri, QMİ nəzdində Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin sədridir.A.Paşazadə dini-ictimai fəaliyyətinə görə çoxsaylı beynəlxalq və yerli dövlət mükafatlarına, orden və medallara layiq görülüb. Elmi fəaliyyətlə də məşğul olan QMİ sədri Bakı Dövlət Universitetinin professoru və tarix elmləri doktorudur. Dünyanın ən nüfuzlu 500 müsəlman şəxsiyyətləri sırasındadır. 1991-ci ildə Bakı İslam Universitetini təsis edən A.Paşazadə, həmçinin, Aşura mərasimləri zamanı ehtiyacı olan insanlar üçün qan verilməsi ənənəsinin əsasını qoyub.

Əlbəttə ki, Şeyxülislam Allahşükür Paşazadənin fəaliyyətinin dövlət səviyyəsində yüksək dəyərləndirilməsi təsadüfi deyildir. Çünki Şeyxülislam Allahşükür Paşazadə ömrünü mənəviyyata həsr etmiş insandır. A.Paşazadə Azərbaycanın mənəvi həyatında özünəməxsus nümunələr yaradıb. Azərbaycan müstəqillik əldə etməzdən əvvəl, şeyxülislamlıq müəyyən çərçivəyə alınmışdı. Dövlət müstəqilliyinin bərpasından sonra isə şeyxülislamlıq tamamilə yeni müstəviyə qədəm qoydu. Bu, ilk növbədə, Allahşükür Paşazadənin adı ilə bağlıdır. Azərbaycan müstəqilliyinin ilk illərindən böyük dövlətlərin marağında idi. A.Paşazadə həmin illərdə məsuliyyəti öz üzərinə götürdü və mənəvi birliyin möhkəmləndirilməsində əhəmiyyətli rol oynadı. O, Azərbaycanda milli-mənəvi birlik modelini yaradıb. Onun bu istiqamətdəki xidmətləri Ulu Öndərimiz Heydər Əliyev tərəfindən xüsusi qiymətləndirilib.

İslam dini mədrik dindir. Onun xurafatdan uzaqlaşdırıb düzgün təqdim edilməsi də Şeyxülislam Allahşükür Paşazadənin xidmətidir. O, çətin zamanda xalqın qarşısına çıxaraq, prinsipial mövqe ortaya qoyub. Bu gün bütün dünyada böyük hörmətə malik olan A.Paşazadə Azərbaycandakı tolerant mühiti beynəlxalq aləmdə tanıdır. Şeyxülislam, eyni zamanda, sülh missiyası həyata keçirən diplomatdır və islam dövlətləri arasında münasibətlərin möhkəmləndirilməsində də böyük rol oynayıb və müsəlman ölkələrinə təcavüzlərə qarşı daim etirazını bildirib. A.Paşazadə Şeyxülislam olaraq, öz missiyasını layiqincə yerinə yetirib və yetirir. 1993-cü ildə, o, bütün insanları Ulu Öndərin ətrafında birləşməyə çağırdı. Bu da, onun vətəndaşlıq missiyasının göstəricisidir. Xalqımızın çətin günlərində Azərbaycanda iki nəfər xalqın qarşısına çıxdı və Qorbaçovu ittiham etdi - Ulu Öndər Heydər Əliyev və Şeyxülislam Allahşükür Paşazadə. Azərbaycan dövləti onun fəaliyyətini layiqincə qiymətləndirib. Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev çıxışlarında A.Paşazadənin xidmətlərini dəfələrlə qeyd ediblər.

Ölkəmizdə dini münasibətləri çox düzgün tənzimləyən Şeyxülislam A.Paşazadə dünyada böyük hörmətə malikdir. Bütün cərəyanların nümayəndələri Vəhdət namazlarında iştirak edirlər. Bu isə, ölkəmizdəki müxtəlif dini cərəyanlara mənsub insanların vahid mərkəzdə birləşdiyini göstərir.

P.S. "Səs" qəzeti olaraq Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəni bu il anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi münasibətilə təbrik edirik, ona möhkəm can sağlığı, gələcək işlərində yeni-yeni uğurlar arzulayırıq.

***"Səs" Analitik Qrupu***

## "Şeyx həzrətləri səmərəli fəaliyyət ortaya qoyub"



"Bu gün Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin 70 yaşı tamam olur. Şeyx həzrətlərinin 70 illik yubileyi və şeyxülislamlıq fəaliyyətinin 40 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hələ aprel ayında müvafiq Sərəncam imzalamışdı. Bu sərəncam çərçivəsində ölkəmizdə və ölkəmizin hüdudlarından kənarda bir çox tədbirlər həyata keçirilməkdədir". Bunu SİA-ya açıqlamasında Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov deyib. Fondun icraçı direktorunun sözlərinə görə, Şeyx həzrətlərinin ölkəmizdəki milli həmrəyliyin bərqərar olması, dövlət-din münasibətlərinin formalaşdırılması, insanlar arasında mənəvi-əxlaqi dəyərlərin təbliğ edilməsi sahəsində böyük xidmətləri vardır: "O, eyni zamanda Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, ölkəmizin beynəlxalq nüfuzunun yüksəldilməsi, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi istiqamətində genişmiqyaslı səylər göstərmişdir. Azərbaycandakı multikultural dəyərlər və tolerant ənənələrin qorunub saxlanılması, eləcə də inkişaf etdirilməsində də Şeyxülislam Allahşükür Paşazadə səmərəli fəaliyyət ortaya qoyub. Təsadüfi deyil ki, cənab Prezidentin bu gün imzaladığı Sərəncamla Şeyx Həzrətləri ali dövlət mükafatı olan "Heydər Əliyev" Ordeni ilə təltif edilib. Mən də, öz növbəmdə Şeyxülislam Allahşükür Paşazadəni 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və gələcək fəaliyyətində müvəffəqiyyətlər arzulayıram".

***Ceyhun Rasimoğlu***



## Bakıda "Azərbaycanda şeyxülislamlıq institutu: keçmişdən bu günə" mövzusunda konfrans keçirilib

***Avqustun 26-da Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Azərbaycanda şeyxülislamlıq institutu: keçmişdən bu günə" mövzusunda konfrans keçirilib.***

AZƏRTAC xəbər verir ki, konfransı giriş sözü ilə açan DQİDK-nın tabeliyində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Azərbaycandakı nümunəvi dövlət-din münasibətlərinin formalaşmasında şeyxülislamlıq institutunun yeri və rolu barədə danışıb, həmçinin konfransın keçirilməsinin əhəmiyyətinə toxunub. DQİDK-nın sədr müavini Gündüz İsmayılov Şeyxülislam Allahşükür Paşazadənin Azərbaycan xalqı qarşısındakı xidmətlərinin hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini deyib. O bildirib ki, ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin Şeyxülislamla bağlı fikirləri onun fəaliyyətinə verilən ən yüksək qiymətdir. G.İsmayılov bu gün Prezident İlham Əliyevin Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xüsusi xidmətlərinə görə Şeyxülislam Allahşükür Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi barədə imzaladığı Sərəncamın əhəmiyyətindən danışaraq qeyd edib ki, bu qərar dövlətin dini sahəyə göstərdiyi diqqətin əyani sübutu, A.Paşazadənin şəxsiyyətinə verilən qiymətin göstəricisidir.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxışında Şeyxülislam Allahşükür Paşazadənin 40 illik fəaliyyətinin müxtəlif dövrlərinə nəzər yetirərək bildirib ki, dövlət-din münasibətlərinin tənzimlənməsi, milli maraqlarımızın təmin olunması istiqamətində A.Paşazadənin fəaliyyəti danılmazdır. O vurğulayıb ki, Azərbaycan dinlərarası, konfessiyalararası, həmçinin məzhəblərarası həmrəyliyin, milli birliyin, mənəvi vəhdətin, dini-mədəni müxtəlifliyin nadir nümunəsidir. Bu nümunənin dünyaya təqdim edilməsində Şeyxülislam Allahşükür Paşazadənin şəxsiyyəti və əməyi danılmazdır.

"SƏS" Media Qrupun rəhbəri Bəhruz Quliyev bu gün Azərbaycanın Cənubi Qafqazın dini mərkəzinə çevrilməsində Şeyxülislam A.Paşazadənin rolunun vacibliyindən danışıb. Bildirilib ki, Şeyxülislam Prezident İlham Əliyevin xüsusi önəm verdiyi və şəxsən dəstəklədiyi dinlərarası dialoq, multikulturalizm kimi bəşəri əhəmiyyətli ideyaları dünyada yüksək səviyyədə təbliğ edir. Dövlət-din münasibətlərinin düzgün məcraya yönəldilməsi, vətəndaş birliyinin təmin olunması, cəmiyyətdə dini-mənəvi sabitliyin qorunub saxlanılması işində fəal mövqe tutur.

Qafqaz Müsəlmanları İdarəsinin mətbuat katibi Rəhimə Dadaşova bildirib ki, Allahşükür Paşazadə ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, təbliği, o cümlədən sivilizasiyalar və mədəniyyətlərarası dialoqun inkişafı, eləcə də ayrı-ayrı dini etiqadlar arasında qarşılıqlı etimad mühitinin yaradılması sahəsində əvəzsiz xidmətlər göstərib. O, eyni zamanda, kütləvi informasiya vasitələrinin nümayəndələri arasında elan edilmiş yazı müsabiqəsində iştirak edən bütün jurnalistlərə Şeyxülislam Allahşükür Paşazadənin fəaliyyətinə xüsusi diqqətlə yanaşdıqlarına görə təşəkkürünü bildirib.

Konfransın sonunda Mənəvi Dəyərlərin Təbliği Fondu və Bakı şəhəri Sabunçu rayonu Bakıxanov qəsəbəsi "İmam Rza" məscidi dini icmasının Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyi ilə əlaqədar kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında keçirdiyi "Şeyxülislam Allahşükür Paşazadə-70" mövzusunda yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb.

# Bir əsrin nümunəsi- “Xalq qəzeti”

***“Xalq qəzeti” mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət “Kommunist” adı ilə nəşr edilən bu qəzet, bütün sovet dövrü ərzində, Azərbaycanın ictimai-iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur.*** Respublikada qəzetçilik ənənələrinin formalaşmasında və jurnalistikamızın inkişafında “Xalq qəzeti”nin xidmətləri xüsusi qeyd olunmalıdır. Bu gün qəzet müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır”.

**Ümummilli Lider Heydər ƏLİYEV**

Bəli, 25 avqust 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin dediyi kimi, bu gün “Xalq qəzeti” müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır.

Azərbaycanın, davamlı olaraq, işıq üzü görən ən uzunömürlü ictimai-siyasi nəşri olan “Xalq qəzeti”nin (1991-ci ilin 27 avqustunadək 72 il “Kommunist” adı ilə nəşr olunmuşdur) yaşının 1 əsrə çatdığı 2019-cu ilin 5 fevralında redaksiyanın tarixinə daha bir diqqətçəkən hadisə yazılır. 100 il yaşamaq Azərbaycan milli mətbuatının tarixində ikinci bir dövri nəşrə nəsib olmamışdır.


Gündəlik ictimai-siyasi qəzet

XALQ QƏZETİ

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının baş katibini qəbul edib

Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz sahibi olan ölkədir

Nəqliyyat dəhlizləri Azərbaycanın iqtisadi imkanlarını genişləndirir

Milli və dövlətçilik maraqlarımızın keşiyində duran dövlət xadimi ▸▸3

Putin-Makron: Rusiya ilə Avropa İttifaqının münasibətlərində ziddiyyətlər azalır ▸▸4

Vasili Şukşin-rus milli ruhunun canlı təcəssümü ▸▸6

Azərbaycan beynəlxalq yarışlarda ön sıralarda özünü təsdiqləyib ▸▸7

Anadilli mətbuatımızın banisi Həsən bəy Zərdabi 2 il 2 ayda böyük fədakarlıqla “Əkinçi”nin cəmi 56 nömrəsini çıxara bilmişdi. Ölkəmizdə ilk milli qəzetimiz sayılan “Əkinçi”dən 44 il sonra birinci sayı işıq üzü görən “Kommunist,” Azərbaycan Xalq Cümhuriyyətinin mətbuat üçün yaratdığı demokratik şəraitdə, türk-müsəlman sosial-demokratların orqanı kimi nəşrə başlamış və ilk nömrəsindən (29 avqust 1919-cu il) sonra fəaliyyəti dayandırılmışdır. Bolşeviklərin hakimiyyəti ələ almasından sonra qəzet 1920-ci il aprelin 30-dan nəşrini davam etdirmişdir.

Kommunist Partiyasının süqutundan sonra və müstəqilliyimizin ilk günlərindən istiqlal məfkurəmizi, azərbaycançılıq ideologiyasını fəaliyyətinin başlıca istiqaməti seçən redaksiya kollektivi “Xalq qəzeti”nin nəşrini rəsmi ictimai-siyasi, eyni zamanda, ümumxalq qəzeti kimi davam etdirmişdir.

1994-cü ilin avqustunda qəzetin 75 yaşı tamam olanda, Ümummilli Lider Heydər Əliyevin redaksiya kollektivinə göndərdiyi təbrik məktubu “Xalq qəzeti”nin XX əsrdə Azərbaycan cəmiyyətində, eləcə də, milli mətbuatımızın tarixində tutduğu layiqli mövqeyə verilən ədalətli rəsmi dəyər olaraq, onun sonrakı fəaliyyətini stimullaşdırmışdır. Təbrik məktubunda deyilir: “Xalq qəzeti” mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət “Kommunist” adı ilə nəşr edilən bu qəzet, bütün sovet dövrü ərzində, Azərbaycanın ictimai - iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur”.

Ulu Öndərin mötəbər qiymətindən də göründüyü kimi, “Xalq qəzeti” sovet dövründə də xalqımızın milli maraqlarına, tərəqqisinə mümkün olduğu qədər çıraq tutmuş, torpaqlarımızın bütövlüyü yolunda ümumxalq hərəkatı dövründə və müstəqillik uğrunda mübarizə dönəmində xalqla bir yerdə olmuşdur.

Onu da vurğulamaq lazımdır ki, qəzet respublikamızda canlı, təcrübi jurnalistika məktəbi kimi ən yaxşı yazarların bir neçə nəslini yetişdirib, öz nümunəsi ilə digər mərkəzi dövri nəşrlərin, bölgə mətbuatının lokomotivi rolunu oynayıb desək, həqiqəti etiraf etmiş olarıq.

“Xalq qəzeti” bu gün respublikanın bütün ərazisində yayımlanır, xarici ölkələrdəki səfirliklərimizə və diaspor təşkilatlarına göndərilir. Xaricdə yaşayan soydaşlarımız internet vasitəsilə hər gün qəzetimizi izləyə bilirlər.

Son 26 ildə “Xalq qəzeti” Ümummilli Lider Heydər Əliyevin və Onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tarixi islahatların və dövlət proqramlarının uğurla reallaşdırılmasının etibarlı və səmərəli informasiya təminatının yaradılmasında öz zəngin təcrübəsi ilə fəal iştirak edir. “Xalq qəzeti,” ölkəmiz yenidən milli dövlətçilik məfkurəsinə qovuşandan sonra təcrübəli mətbuat orqanı kimi, cəmiyyətdəki nüfuzunu artırır və ölkənin öncül qəzeti mövqeyini qoruyub-saxlayır.

“Xalq qəzeti” bu gün ölkəmizin siyasi həyatında parlamentarizm düşüncəsinin daha da aydınlaşdırılmasına və möhkəmləndirilməsinə öz töhfəsini verməkdədir.

“Xalq qəzeti”nin 100 illiyi münasibəti ilə “SƏS” qəzeti kollektivi bu bayram sevincinə qoşulur, qəzetin kollektivini və oxucularını təbrik edir, uğurlar arzulayır. 100 YAŞINIZ MÜBARƏK, əziz həmkarlarımız!

***“SƏS” qəzeti kollektivi***

# “Dini mərasimlər: ənənəvilik və müasirlik” mövzusunda seminar-müşavirə keçirilib

***Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Suraxanı rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə “Dini mərasimlər: ənənəvilik və müasirlik” mövzusunda seminar-müşavirə keçirilib.***






Rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, icra hakimiyyətinin nümayəndələri, bələdiyyə sədrləri, din xadimləri, dindarlar və gənclərin iştirak etdiyi tədbirdə əvvəlcə Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş “Heydər Əliyev: dəyərlərimizin xilaskarı” sənədli filmi nümayiş olunub.

Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edərək, mövzunun aktuallığından danışıb. İ.Abbasov dini mühitdə cərəyan edən mənfi tendensiyaların qarşısının alınması, radikalizmlə mübarizənin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən tədbirlərin önəminə toxunaraq, bu sahədəki maarifləndirmə işlərinin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb. Onun sözlərinə görə, dövlətimizin din sahəsindəki başlıca vəzifəsi dövlət-din münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsi, eləcə də, vətəndaşlarımızın dini etiqad azadlığının yüksək səviyyədə təmin olunmasıdır. Rayonda dini durumun sabit olduğunu qeyd edən RİH-in başçısı, onu da bildirib ki, Suraxanı ərazisində 12 məscid və 1 ziyarətgah fəaliyyət göstərir.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov vurğulayıb ki, bu cür maarifləndirmə tədbirlərinin keçirilməsində əsas məqsəd cəmiyyətin dinlə bağlı düzgün məlumatlandırılmasıdır. S.Heydərov DQİDK-nın digər müvafiq qurumlarla birgə bu sahədə mütəmadi işlər həyata keçirdiyini diqqətə çatdırıb. Respublikamızda ictimai-siyasi və dini durumun sabit olduğunu vurğulayan sədr müavini deyib ki, Ümummilli Liderimiz Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mədəniyyətlərarası və dinlərarası dialoq məkanına çevrilib. O, Bakıda keçirilən mədəniyyətlərarası və humanitar forumların əhəmiyyətindən də danışıb, bunu ölkəmizin, xüsusilə, dövlətimizin başçısının dinlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfənin təzahürü kimi qiymətləndirib.

Dünyada gedən proseslərə nəzərə salan S.Heydərov deyib ki, bəzi qüvvələr öz geosiyasi maraqlarını həyata keçimək üçün din amilindən istifadə edirlər. Qeyd edib ki, son dövrlərdə dünyada, o cümlədən, müsəlman ölkələrində baş verən məzhəblərarası qarşıdurmalarda və müharibələrdə din amili daha qabarıq şəkildə özünü büruzə verir. “İslam dini, əslində, sülh və əmin-amanlıq dinidir. Bu din inkişafa, elm və təhsilə xüsusi önəm verir. İslamda xurafat elementləri yoxdur” deyə sədr müavini əlavə edib.

S.Heydərov hər kəsi dini radikalizmə qarşı ayıq-sayıq olmağa çağıraraq, cəmiyyətə, xüsusilə, gənclərimizə yad dini ideologiyaların təsirinə məruz qalmamağı tövsiyə edib. Onun sözlərinə görə, vətəndaşlarımız milli-mənəvi dəyərlərimizi unutmamalı, bu dəyərlərə sadiq olmalıdır.

S.Heydərov sentyabrın 1-də müsəlman dünyasında Məhərrəmlik ayının başlanması ilə əlaqədar məscidlərdə və digər ibadət yerlərində dini mərasimlərin icrası zamanı Qafqaz Müsəlmanları İdarəsinin verdiyi Fətvanın tələblərinə ciddi riayət olunmasının vacibliyini diqqətə çatdıraraq vurğulayıb ki, Aşura mərasimləri milli adət-ənənələrimizə uyğun formada keçirilməlidir.

***ZÜMRÜD BAYRAMOVA***

## Milli Kitabxanada növbəti sərgi Allahşükür Paşazadənin 70 illiyinə həsr edilib

Avqustun 26-da Azərbaycan Milli Kitabxanasında Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi münasibətilə “Allahşükür Paşazadə-70” adlı geniş kitab sərgisi açılıb.




Kitabxanadan AZƏRTAC-a bildirilib ki, sərgidə Allahşükür Paşazadənin Azərbaycan və xarici dillərdə müəllifi olduğu, “Ön söz” yazdığı, tərtib etdiyi, redaktoru olduğu və haqqında yazılan kitablar və dövri mətbuat materialları nümayiş olunur.

## Ərdoğan bu gün Moskvaya gedəcək

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan avqustun 27-də Rusiyaya işgüzar səfərə gedəcək. Anadolu agentliyi xəbər verir ki, səfər çərçivəsində iki ölkə başçılarının görüşü olacaq. Tərəflərin ikitərəfli və nümayəndə heyətləri ilə görüşləri də nəzərdə tutulub. Görüşlərdə Türkiyə-Rusiya ikitərəfli əlaqələrinin bütün istiqamətləri müzakirə ediləcək, həmçinin bir sıra regional və beynəlxalq məsələlər haqqında fikir mübadiləsi aparılacaq.



Türkiyə Prezidenti dünyanın aparıcı tədbirlərindən olan MAKS-2019 Beynəlxalq Aerokosmik Sərgisinin açılışında da iştirak edəcək.

# Sosial problemlərin getdikcə ağırlaşdığı Ermənistanda etiraz dalğası davam edir

***Bu gün dünyada tanınmış multikulturalizm mərkəzlərindən birinə çevrilən Azərbaycan yürütdüyü siyasəti, eləcə də, cəmiyyətin durumu sübut edir ki, ölkəmizdə multikulturalizm dərin köklərə malikdir. Müxtəlif mədəniyyətlərin nümayəndələrini bir araya gətirən dünya və Avropa miqyaslı tədbirlərin Azərbaycanda keçirilməsi ənənə halını alıb və ölkəmiz müxtəlif sivilizasiyaların qovuşduğu məkana çevrilib.***

Azərbaycan ərazisində yaşayan bütün xalqların hüquq bərabərliyinin təmin edilməsi, fərqli dinlərə etiqad edən insanların etnik-mədəni və dini dəyərlərinin qorunması və inkişaf etdirilməsi, ölkəmizdə məscidin də, kilsənin də, sinaqoqun da olması mövcud ənənələrə söykənir. Belə bir dəyərlərə sahib olan, dünyaya sülh mesajı verən Azərbaycan dinindən-irqindən asılı olmayaraq hər kəsi qardaşlıq, dostluq yoluna dəvət edir, həmrəylik nümayiş etdirir. Amma təəssüflə də olsa, vurğulamalıyıq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin yeganə ciddi problemidir. Bu gün ölkəmiz hərtərəfli şəkildə inkişaf edir, amma Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində, torpaqlarımızın 20 faizinin işğal olunması inkişafın daha da sürətlənməsinə maneçilik törədir. Bu gün Azərbaycan ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ regionu və onun ətrafındakı 7 rayon təcavüzkar Ermənistanın işğalı altındadır. Azərbaycanın işğal olunmuş torpaqlarından 1 milyondan çox dinc sakin doğma yurdundan didərgin salınıb. Bu günədək göstərilən beynəlxalq səylər, Ermənistanın qeyri-konstruktiv və pozucu mövqeyi münaqişənin sülh yolu ilə həllinə imkan vermir. Münaqişənin nizama salınmaması, nəinki Cənubi Qafqaz regionunda, həm də dünyada sülh və sabitlik üçün təhlükə mənbəyidir. Ermənistan isə, öz xarici havadarlarına güvənərək, münaqişənin sülh yolu ilə həllini uzadır. BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının qətnamələrinə, İƏT və digər beynəlxalq təşkilatların qərarlarına və ayrıca dövlətlərin mövqelərinə məhəl qoymayaraq və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərini kobud şəkildə pozmaqda davam edir.







## "AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ DANIŞIQLAR PREDMETİ DEYİL VƏ OLMAYACAQ"

Bu gün dünyada inkişaf edən dövlətlər sırasında adı olan Azərbaycan güclü dövlətdir, onun güclü ordusu var və öz torpaqlarını işğaldan azad etməyə qadirdir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyilə yürüdülən xarici siyasətdə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi prioritet yer tutur. Prezident İlham Əliyevin birmənalı olaraq qeyd etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil və olmayacaq. Torpaqlarımızın bir qarışını da güzəştə getməyəcəyik.

Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirən Ermənistan iqtisadiyyatı artıq tamamilə tənəzzülə uğrayıb. İşğalçı ölkənin dövlət büdcəsinin gəlirləri də rekord həddə azalıb. 1998-ci ildən etibarən əhalinin həyat standartlarının azaldığını hökumət dairələri artıq etiraf edib. Ölkədə miqrasiya tempi də yüksəlib. BMT-nin ekspert qrupunun hesablamalarına görə isə, 2025-2030-cu illərədək Ermənistanda əhalinin sayının azalaraq, təqribən 1 milyon 500 min-2 milyon nəfər olacağı gözlənilir.



## ERMƏNİSTAN DÖVLƏTİ CİDDİ TƏHLÜKƏ QARŞISINDADIR

Hazırkı hakimiyyətin səriştəsizliyi nəticəsində, ölkədə geniş yayılmış yoxsulluq və acınacaqlı sosial-iqtisadi durum rayon və kəndlərdə uşaqların məktəbə getmələrinə imkan vermir, çünki onların valideynləri məktəb ləvazimatları almaq iqtidarında deyillər. Bu səbəbdən, valideynlər məktəbdən uşaqların sənədlərini götürüb, onları pul qazanmağa və hətta dilənçiliyə belə göndərirlər. Bu müddət ərzində isə, ölkəni tərk edən əhali arasında təhsil alan şagirdlərin sayı da kəskin azalıb. Bəzi ümumtəhsil məktəbləri ləğv edilib. Ümumtəhsil müəssisələrinin bağlanması halları təkcə şəhərlərdə deyil, rayon və kəndlərdə də qeydə alınıb.

Təbii ki, hazırda xarici qrantlar, kreditlər və pul yardımı toplayan marafonlardan əldə edilmiş maliyyə vəsaitləri hesabına yaşamaq məcburiyyətində olan ölkənin iqtisadiyyatını inkişaf etdirmək mümkün deyil.

Ermənistanın istər siyasi, istərsə də iqtisadi vəziyyəti günü-gündən pisləşir. Ermənistan hakimiyyətinin daxili siyasəti ölkədə ictimai fikrə təsir göstərə bilən yalan siyasi vədlər üzərində qurulub. Bu cür vədlər verməklə, hakimiyyət Ermənistanın siyasi, iqtisadi, sosial, hərbi, təhsil, demoqrafik və digər sahələrində mövcud olan problemlərdən insanların diqqətini yayındırmaq və iqtidara qarşı mümkün etiraz aksiyalarının qarşısını almaq istəyir.

Bu gün Ermənistanda etirazların miqyası genişlənir. Sosial problemlərin getdikcə ağırlaşdığı Ermənistanda, etiraz dalğası davam edir. Ölkədə hər gün işsizlərin sayı artır. Aksiya iştirakçıları Paşinyan və onun komandasından xalqın incidilməsinə son qoymağı tələb ediblər. Bu günlərdə isə, daha bir etiraz aksiyası keçirilib. İşğalçı ölkənin şərqində yerləşən Cermuxda sakinlər yolları bağlayıblar. Cermuxda etiraz aksiyası keçirən əhali parlament qarşısında polis tərəfindən saxlanılnaların azadlığa buraxılmalarını tələb edib. Narazı kütlə bildirib ki, Ermənistanda mədən işlərinin fəaliyyəti ilə məşğul olan xarici şirkətlər ölkəni tərk etsinlər. Onların fikrincə, bu şirkətlərdə çalışanların hüquqları pozulur. Bundan başqa dağ-mədən ərazilərində aparılan iş zamanı partlayışların olması nəticəsində, yaşayış sahələrində yeraltı təkanlar baş verir. Bunun nəticəsində, əksər yaşayış yerlərində torpaq sürüşmələri qeydə alınıb. Etirazçılar bildiriblər ki, dəfələrlə problemlə bağlı rayon icra hakimiyyətinin başçısına şikayət olunsa da, məsələnin həll olunması üçün heç bir addım atılmayıb. Etirazçılar, eyni zamanda, məmur özbaşnalığından da narazılıq edirlər. Aksiya iştirakçıları ötən gün polisin parlament qarşısında etiraz edənlərə işgəncə verdiyini vurğulayırlar. Hətta onlar qadınlara belə vəhşilik etməkdən çəkinmirlər.

Yoxsul və səfil bir vəziyyətdə yaşayan Ermənstanda "Sibir qarayarası"nın yayılmasıda əhalinin vəziyyətini bir qədər də pisləşdirib. Ermənistan Səhiyyə Nazirliyinin yaydığı məlumata görə, əvvəlcə Qeqarkunik rayonu Qexovit kəndinin iki sakini Martuni şəhərinin xəstəxanasına "Sibir qarayarası"nın dəri forması əlamətləri ilə müraciət edib. Müəyyən edilib ki, onlar bir neçə gün əvvəl, dana əti yeyiblər. Bundan sonra kəndin daha 6 sakinində bu xəstəliyin əlamətləri tapılıb. Onların hamısının dərisində "Sibir qarayarası" virusu törənib.

Epidemiyanın ətraf bölgələrə yayılmasının qarşısını almaq məqsədilə, kəndə göndərilən infeksion xəstəliklərin profilaktikası və müalicəsi mərkəzinin həkimləri müayinə zamanı daha beş nəfərin DNT-sində bu xəstəliyi törədən viruslar aşkar ediblər.

Amma hadisələrin gedişatı, bizə deməyə əsas verir ki, Nikol Paşinyan hakimiyyətinin həyata keçirdiyi siyasət Ermənistanın təkcə müstəqilliyinin itirilməsi ilə deyil, eyni zamanda, dövlətçiliyinin də ciddi təhlükə qarşısında qalması ilə nəticələnə bilər. Regional əməkdaşlığı inkişaf etdirmək və iqtisadiyyatı inkişaf etmiş qonşu ölkələrlə münasibətlər qurmaq əvəzinə, Ermənistan hakimiyyəti işğalçılıq fəaliyyətindən əl çəkmir.

**Nəzakət ƏLƏDDİNQIZI**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

27 avqust 2019-cu il

# Qəbul imtahanında tətbiq edilən yeni mexanizmin ilkin nəticələri



***Hamıya məlumdur ki, bu ildən etibarən ali məktəblərə qəbul qaydaları yeni model əsasında həyata keçirildi. Birinci mərhələdən sonra ali təhsil müəssisələrinə qəbul olunan abituriyentlərin qeydiyyatının avqustun 27-də başa çatacağını nəzərə aldıqda, artıq bir çox abituriyentlər seçdikləri ixtisas üzrə qeydiyyatdan da keçiblər. Dövlət İmtahan Mərkəzi tərəfindən açıqlanan son məlumata görə, ilk mərhələdə ali təhsil müəssisələrinə qəbul olunanların 89%-i (o cümlədən dövlət sifarişi əsasında qəbul olunanların 97%-i) qeydiyyatdan keçiblər. Boş qalan yerlərinə qəbul olunanların qeydiyyatı isə sentyabrın 2-də bitəcək.***

## 2019-cu ildən qəbul imtahanlarında tətbiqinə başlanan yeni mexanizmin fərqli tərəfləri



Təhsil üzrə ekspert Kamran Əsədov bildirib ki, artıq 18 ildir ki, alternativ variantlarla sualları cavablandırmağa öyrəşən abituriyentlərə neçə ildir ki, açıq testlər də verilir: “7 ildir ki, qəbul imtahanlarında müəyyən fənlər üzrə açıq tipli test tapşırığı təqdim olunur. Qapalı test tapşırığı o test tapşırığıdır ki, imtahan iştirakçılarına sualın cavabı variantlarla təqdim olunur və o doğru bildiyi cavabı seçir. Açıq test tapşırığında isə iştirakçı cavabı özü yazır. Bunun kifayət qədər müsbət tərəfi var. Nəzərə alaq ki, qapalı test suallarının cavablandırılmasında təsadüfi amillər, yəni müəyyən qədər bəxt də rol oynayır.

Çünki qarşısındakı hər bir sualın 5 mümkün cavabına baxan abituriyent onlardan birinin düz olması haqqında təsadüfi fikrə gəlir və həmin cavabı da qeyd edir. Bununla da o, imtahanda uğur qazanmaq şansını artırır. Açıq sualların tətbiqində isə bu təsadüfilik amili aradan qaldırılır. Maraqlı hal odur ki, açıq sualı cavablandıra bilməyən abituriyent digər bir abituriyentin bu suala verdiyi istər düz, istərsə də səhv cavabı köçürə bilməyəcək. Həmin suallara verilmiş səhv cavablar da abituriyent üçün cərimə kimi hesablamayacaq. Bu il, 2019-cu ildə keçirilən buraxılış və qəbul imtahanlarında istifadə olunan test tapşırıqları məzmun baxımından ciddi şəkildə fərqlənməsə də, forma və üslüb baxımından yeni oldu ki, bu da maksimum bal toplayan abituriyentin olmaması ilə nəticələndi”.

## 2019-cu ildə ali məktəblərə qəbul Planı

Ekspert qeyd edib ki, 2019-cu ildə ali təhsil müəssisələrinə qəbul planı 2018-ci illə müqayisədə daha çox idi: “Ümumilikdə 2807 yer və ya 6.22% artım var idi. Dövlət sifarişli üzrə isə plan yerlərinin sayı kəskin artırılıb. 47966 plan yerindən 20189 yer dövlət sifarişli idi və ötən illə müqayisədə bu 7985 yer və ya 65,43% artım deməkdir. 2019-cu ildə keçirilən imtahanların nəticələrini təhlil edərkən məlum oldu ki, bu il tələbə qəbulu aparılan 42 ali təhsil müəssisənin 7-də plan yerləri 100 %, 20 ali təhsil müəssisəsində 90%-dən, 9 ali təhsil müəssisəsində 80%-dən çox dolub. Ümumiyyətlə, qəbul aparılan ixtisasları xüsusi qabiliyyət tələb edən Bakı Xoreoqrafiya Akademiyası istisna olmaqla, digər ali təhsil müəssisələrinin plan yerləri 70%-dən çox dolub”.

## Universitetlərin Plan Yerləri

Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisələrindəki növbəti tədris ili üçün nəzərdə tutulan plan yerlərinin sayı aşağıdakı kimidir:

Bakı Dövlət Universiteti - 6320

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti - 3060

Azərbaycan Texniki Universiteti - 2070

Azərbaycan Dövlət Pedaqoji Universiteti - 335

Azərbaycan İqtisad Universiteti - 3728



Azərbaycan Dillər Universiteti - 1605

Bakı Slavyan Universiteti - 1230

Azərbaycan Memarlıq və İnşaat Universiteti - 1575

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti - 625

Gəncə Dövlət Universiteti - 1700

Sumqayıt Dövlət Universiteti - 1850

## Ali məktəblərdə Azərbaycan bölməsi ilə bağlı vəziyyət

Təhsil üzrə mütəxəssis Elçin Əfəndi bildirib ki, ötən illə müqayisədə bu il tam orta (11 illik) ixtisas təhsili müəssisələrinə Azərbaycan bölməsi üzrə 719 plan yeri artırılıb, rus bölməsi üzrə isə 338 yer azaldılıb: “Ötən il tam orta (11 illik) ixtisas təhsili müəssisələrinə qəbul üzrə 11.981 plan yeri ayrılıb. Bu yerlərdən 9184 yer Azərbaycan, 2797 yer isə rus bölməsinə aid idi. Bu il isə ümumi 12362 plan yeri ayrılıb ki, bunlardan da 9903 yer Azərbaycan, 2459 yer isə rus bölməsinə aiddir”.



## Təhsil haqqlarında vəziyyət?

Tələbələrin hər zaman üstünlük verdiyi ixtisasların müxtəlif universitetlərdəki təhsil haqları isə belədir:

Bakı Dövlət Universiteti:

- hüquqşünaslıq ixtisası - 4500 manat;
- beynəlxalq münasibətlər ixtisası - 2900 manat;
- iqtisadiyyat, menecment, davamlı inkişafın idarə edilməsi - 2500 manat;
- dövlət və ictimai münasibətlər ixtisası - 2800 manat.

Bakı Ali Neft Məktəbi:

- informasiya təhlükəsizliyi, proseslərin avtomatlaşdırılması mühəndisliyi və neft-qaz mühəndisliyi - 4500 manat

Azərbaycan Turizm və Menecment Universiteti:

- turizm və hotelçilik ixtisası - 3000 manat;
- tərcümə ixtisası - 2600 manat;
- maliyyə, biznesin idarə edilməsi ixtisası - 2400 manat.

Bakı Mühəndislik Universiteti:

- maliyyə, mühasibat uçotu və audit ixtisasları - 2900 manat;
- iqtisadiyyat, biznesin idarə edilməsi ixtisasları - 2800 manat;
- memarlıq ixtisası - 2700 manat.

Xəzər Universiteti:

- kompüter elmləri, kompüter mühəndisliyi, mühasibat uçotu və audit, maliyyə, turizm və hotelçilik ixtisasları 5000 manat;
- mühəndislik, regionşünaslıq, beynəlxalq münasibətlər, biznesin idarə edilməsi ixtisasları - 4500 manat;
- pedaqoji, tərcümə, dizayn ixtisasları - 4000 manat.

Azərbaycan Universiteti:

- tərcümə ixtisası - 3000 manat;
- filologiya, tarix, sosial iş, regionşünaslıq, turizm və hotelçilik, mühasibat uçotu və audit, maliyyə, iqtisadiyyat, menecment, marketinq, biznesin idarə edilməsi, kompüter mühəndisliyi, istehlak mallarının ekspertizası və marketinqi, eləcə də kommersiya ixtisasları - 2000-2500 manat.

Qeyd edək ki, DİM 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə yerləşdirmənin nəticələrini avqustun 20-də açıqlayıb.

***Nailə Məhərrəmova***



# Əli Kərimli siyasətçi deyil, siyasi dəllaldır

***Son günlər AXCP sədri Əli Kərimli sosial şəbəkələrdə fəallaşaraq şou xarakterli və xaricdən verilən müxtəlif tapşırıqlara uyğun pozucu və təxribat xarakterli statuslar paylaşır və internet televiziyalara müsahibə verir. Ə.Kərimlinin bu cür milli və dövlətçilik maraqlarına zərbə vurmağa cəhd etməsinin arxasında hansısa maraqlı qüvvələrin dayandığını demək olarmı? Söhbət etdiyimiz müsahiblərimiz Ə.Kərimlinin satqın və xəyanətkar mövqe sərgiləməsini onun ağlında problemlərinin olması ilə əlaqələndirdilər.***

<u>Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov:</u> **"Əli Kərimli kimi satqının təxribatlarının arxasında maraqlı qüvvələrdə dayanır"**

- Hər zaman olduğu kimi, yenə də bu isti havalarda yatan müxalifət, adətən, payız ayları yaxınlaşdıqca fəallaşmağa başlayırlar, amma çox təəssüflər olsun ki, bunların fəallaşması, hər zaman olduğu kimi, bu dəfə də şər-böhtan, heç bir fakta söykənməyən sensasiyon və şou xarakterli informasiyaları yaymaqdan ibarət olur. Ümumiyyətlə, müxalifət düşərgəsini təmsil edən şəxslərin xalq arasında heç bir dəyəri qalmayıb, yəni xalq üçün müxalifətin var olub-olmaması maraqlı deyil. Çünki xalq içərində onları dinləyəcək vətəndaş yoxdur. Belə olan halda da, müxalifətin yeganə vasitələri internet vasitələridir ki, yəni sosial şəbəkələrdir. Hansı ki, burada oturub və ağıllarına gələni uyduraraq, sensasiyon xəbərlər yaymaqla, ictimaiyyəti çaşdırmağa cəhd edirlər. Təbii ki, Ə.Kərimli kimi satqının təxribatlarının arxasında xüsusi qüvvələr dayanır. Bir sözlə, bunların başında beynəlxalq anti-Azərbaycan mövqe tutan erməni lobbisi tərəfindən maliyyələşən təşkilatlar və digər Azərbaycanı sevməyən qüvvələr durur. Dəfələrlə də bu faktlar sübut olunub. Onların söyüş kampaniyasına qoşulan xaricidəki əlaltılarının da hardan maliyyələşdiyi, fakt olaraq, ortaya qoyulmuş və xalqa çatdırılmışdır. Ona görə də, hər dəfə olduğu kimi, bu dəfə də bunların qaragüruh əməlləri və böhtan kampaniyası iflasa uğrayacaqdır. Onlar fakta söykənməyən şər kampaniyasına başladıqları andan iflasa məhkumdurlar. Çünki əsl həqiqəti xalq bilir və həqiqət göz qarşısındadır və xalq düzü əyridən seçməyi bacarır.



<u>"Azadlıq Hərəkatçıları Birliyi"nin sədri Təhmasib Novruzov:</u> **"Əli Kərimli xəyanətkar fəaliyyəti ilə pul qazanmağa çalışır"**

- Sualınızın sonundan başlamaq istərdim. Əli Kərimlinin bu qeyri-konstruktiv, antidövlət fəaliyyətinin arxasında çox maraqlar var. Ə.Kərimli xəyanətkar fəaliyyəti ilə pul qazanmağa çalışır. Bu adam siyasətçi deyil, siyasi biznesmendir, daha dəqiq desək, siyasi dəllaldır. Yəni pul qazanmaq xatirinə, bu adamın doğmalarına da, yaxınlarına da, dostlarına da, milli və dövlətçilik maraqlarına da arxa çevirdiyinin dəfələrlə şahidi olmuşuq. Əvvəllər təkcə xaricdəki anti-Azərbaycan qüvvələrdən külli miqdarda maliyyə qoparıb vətəndaşı olduğu ölkəsinin maraqlarını qurban verən bu adamın indi yeni maliyyə bulağı açılıb. İndi həmin xarici qüvvələrlə yanaşı, ölkədə müəyyən vəzifələr tutmuş, korrupsiyaya qurşandığına, şəxsi maraqlarını xalqın və dövlətin maraqlarından üstün tutduqlarına görə vəzifələrindən uzaqlaşdırılmış eks-məmurların da korrupsiyadan əldə etdikləri milyonlardan pay alırlar. Bu, mənəviyyatsızlığın növbəti raundudur. Yəni ölkə başçısı xalqa xidmət etməyən, əksinə, xalqın zərərinə çalışan məmurlardan ölkə hakimiyyətini təmizləyir, özünü siyasi opponent adlandıran Ə.Kərimli və onun kimilər dünənə kimi olmazın təhqirlərini söylədikləri həmin adamlarla iş birliyi qurur. Məncə, bunun siyasətdə adı yoxdur və bu, ancaq və ancaq mənəviyyatın aşılanmasının ən son göstəricisidir. Onun çıxışlarına, müsahibələrinə, nə qədər ağrılı olsa da, mən də qulaq asıram. Dediklərinin içində bir kəlmə olsun xalqın rifahının yaxşılaşmasına, ölkədəki problemlərin həllinə yönəldilmiş söz tapmaq mümkün deyil. Bu isə, hər şeydən əvvəl, Əlinin özünü uçurumun son addımlığına sürükləyir.



<u>"Yurddaş" partiyasının sədri Mais Səfərli:</u> **"Əli Kərimlidən hər cür yaramazlıq gözləmək olar"**

- Bu gün ölkə ictimaiyyəti Əli Kərimlini də, digər o radikal müxalifətin liderlərini də çox gözəl tanıyır. Dəfələrlə xalq AXCP sədrinin qəpik-quruş qazanmaq üçün milli maraqları satmağa çalışdığının şahidi olub. Bu baxımdan, Ə.Kərimlidən hər cür yaramazlıq gözləmək olar. Onun kimilər nə qədər təxribatlara cəhd etsələr də, istəklərinə nail ola bilməyəcəklər. Ölkədə gedən inkişafdan vətəndaşlar çox məmnundurlar və müxalifətin bu cür reallığı özündə əks etdirməyən fikirlər səsləndirməsinə "it hürər, karvan keçər" məsli kimi baxırlar. Bunların diqqət mərkəzinə çevrilmək üçün atdıqları təxribatlarına cəmiyyət əhəmiyyətsiz yanaşır. Yəni müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri də, çox gözəl bilirlər ki, Azərbaycan vətəndaşları müxalifətin dediklərinə heç vaxtı inanmır. Qaldı ki, müxalifətin bu cür fəallaşması onlara xaricdən təlimat verilir. Azərbaycanın inkişafından çox narahat olan, qısqanclıq hissi keçirən bəzi siyasi dairələr var. Yəni xaricidə olan bəzi qüvvələr var ki, Azərbaycan dövlətinin inkişaf etməsi onları sevindirmir, əksinə, onlar bu inkişafdan narahatlıq hissi keçirirlər. Azərbaycan getdikcə qüdrətlənib, Azərbaycan bu gün nəinki regionun güclü-qüdrətli dövlətinə çevrilib, Azərbaycan artıq dünyada öz hörmətini qazanmış nüfuzlu bir dövlətdir. Ona görə də, bunlar çalışırlar ki, bizim inkişafımızı əngəlləsinlər. Amma onların nə etməsindən və deməsindən asılı olmayaraq, onlar heç vaxt öz məkrli istəklərinə çatmayacaqlar.



***GÜLYANƏ***

# Əli Kərimlinin psixoloji problemləri var

*Əgər bir insan, iyirmi il davamlı olaraq, eyni şeyi təkrar edib-durursa və nəticədə heç nəyə nail ola bilmir, hətta geriləyirsə, ancaq yenə də həmin işi davam etdirirsə, deməli, onun mənəvi-psixoloji problemi çox dərindir*



***Siyasi gündəmdə boşluq olan kimi, Əli Kərimli "facebook" səhifəsində cəbhəçi həbsi ilə bağlı status paylaşır, hətta utanmadan deyir ki, hakimiyyət AXCP-dən qorxur. Həqiqətən də, çox gülməli və acınacaqlıdır.***

Ona görə gülməlidir ki, Ə.Kərimli yalan danışır. AXCP-nin hansı resursu var ki, hakimiyyət ondan qorxsun? AXCP Ə.Kərimlidən, müavinlərindən və 50-60 nəfərlik troldan ibarətdir. Sosial şəbəkə partiyasına çevrilmiş AXCP hakimiyyət üçün necə təhdid ola bilər? Ona görə acınacaqlıdır ki, AXCP başdan ayağa cinayətkarlardan ibarət bir partiyadır. Əgər Ə.Kərimliyə tez-tez partiya üzvlərinin həbs olunması ilə bağlı status paylaşırsa, deməli, partiyanın tərkibi ilə bağlı problem var. Demək ki, Ə.Kərimli partiya sıralarına daha çox kriminal elementləri cəlb edir. Əgər kriminal əməlləri olanlar AXCP-də qərar tuturlarsa, Əli Kərimli də buna şərait yaradırsa, o zaman, nəticə və həbslərdən dolayı, siyasi oyun da AXCP sədri tərəfdən əvvəlcədən planlaşdırılmış olur. Çünki Ə.Kərimli də yaxşı anlayır ki, AXCP üzvü olmaq insanlara hansısa immuniteti vermir və cinayət törədilirsə, aidiyyəti dövlət orqanları müvafiq tədbir görür. Elə bu səbəbdəndir ki, Ə.Kərimli bilərəkdən gəncləri aqressiv formada fəaliyyətə təhrik edir, onları qanunu pozmağa məcbur edir ki, dövlət də adekvat tədbirlər görəndə, bundan siyasi məqsədlər üçün istifadə etsin.

Yəqin ki, Ə.Kərimli 200 min manatlıq oğurluq etmiş müşaviri Qabil Məmmədrzayevi, AXCP Cəlilabad rayon təşkilatının sədri Təzəxan Mirələmlinin narkotik alveri ilə bağlılığını yaddan çıxarmayıb. AXCP ətrafında hər növ cinayəti törədənlər yer alıbsa, Ə.Kərimlinin danışmağa mənəvi haqqı çatmır.

Ümumiyyətlə, Əli Kərimlinin bütün fəaliyyəti onu göstərir ki, bu adam, sadəcə, özünə bir iş tapa bilmir. Onun cəmiyyətə, ailəsinə və ətrafına fayda gətirə biləcək bir işin ucundan yapışmaq bacarığı yoxdur. O, hər statusunda iddia edir ki, hakimiyyət narahatdır, cəmiyyət barıt çəlləyini xatırladır və bu gün-sabah inqilab olacaq.

Bəs, Ə.Kərimlinin iddiasına əsasən, hakimiyyətin narahatlığının səbəb nədir? Üç-dörd dələduz cəbhəçini saxlayıblar, bir də T.Yaqublunu prokurorluğa çağırıblar. Vəssalam.

Görünür, bütün şüurlu həyatını kompyuter arxasında keçirən və səhərdən-axşama kimi "facebook"da ictimai qıcıq yaratmağa çalışan bu adam, hesab edir ki, bir neçə yaxınının onunla həmfikir olması və formalaşdırdıqları trol dəstəsinin dəstəyi ictimai narazılıqdır, inqilabi situasiyanın ərəfəsidir və hakimiyyətin çöküşünün başlanğıcıdır. Maraqlıdır ki, 1993-cü ildən bu iddiaları səsləndirməkdən yorulmurlar. İnternet gəlməmiş qəzetlərdə bunları deyirdilər, indi də sosial şəbəkələrdə. Fakt odur ki, onların mübarizəsi həmişə qəzet səhifəsində və sosial şəbəkələrdə olub. Onlar artıq virtual aləmlə real həyat arasında sərhədi itiriblər. Elə düşünürlər ki, sosial şəbəkədə bir neçə səviyyəsizin ağzı köpüklü ritorikası ictimai narazılıq, kimlərinsə asacağıq-kəsəcəyik iddiası isə inqilabdır. Bunlar, olsa-olsa, yalnız virtual məkanda qəhrəmanlıq edə bilərlər, çünki reallıqda cəmiyyət, ölkə vətəndaşları, nəinki Ə.Kərimlinin iddialarından, heç onun mövcudluğundan belə xəbərsizdirlər.

Həyata keçirilən sosial tədbirləri hədəfə götürmək istədi, hər gün bir adamın sosial problemini qabardıb ictimailəşdirməklə iqtidarın sosial siyasətini gözdən salacağını düşündü, amma alınmadı. Məmurların, imkanlı şəxslərin əmlakını müzakirəyə çıxarmaqla, hakimiyyətin nüfuzuna zərbə vuracağını düşündü, ancaq heç nə çıxmadı. İndi də "ay camaat, gəlin qoşulun cəbhəyə" çığırmaqla, insanları rəhbərlik etdiyi partiyanın sıralarına cəlb etməyə çalışır, "Rusiyada aksiyalar keçirildi, biz də başlayacaq" deməklə, vətəndaşları qarşıdurmaya cəlb eləmək istədi, amma boş çıxdı. Çünki real həyatda nə onun özü var, nə də dəstək verən. Bu adam artıq nə edəcəyini bilmir.

Ə.Kərimli əgər obyektiv siyasətçi olsaydı, o zaman illərdir ona ünvanlanan suallara cavab verərdi. Sadəcə olaraq, Ə.Kərimli yazır ki, mövcudluğunu təsdiq etsin, yanında qalan üç-beş nəfər də qaçmasın.

Əgər bir insan iyirmi il, davamlı olaraq, eyni şeyi təkrar edib-durursa və nəticədə, heç nəyə nail ola bilmir, hətta geriləyirsə, ancaq yenə də həmin işi davam etdirirsə, deməli, onun problemi ilə, artıq psixoloqlar məşğul olmalıdır...

***"Səs" Analitik Qrupu***

## "Əli Kərimli artım və böyümə görüntüsü yaratmağa çalışsa da, AXCP-nin sıraları boşalır"

"Öz yazdıqlarına və dediklərinə, getdiyi yolun birmənalı sonluğuna tərəddüdsüz inanan AXCP sədri Əli Kərimli əslində tam fərqli ampluada olmalı olduğu halda, aqressivləşir, soyuq və real mühakiməni itirir, olanlarla arzu edilənlər arasındakı fərqi, tərəfdarlarının taleyi üçün məsuliyyət hissini itirir". Bu fikirləri SİA-ya "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Partiya sədrinin narahatlığının səbəblərini açıqlayan baş redaktor söyləyib ki, Əli Kərimli 1993-cü ildən bu günə qədərki 26 illik dövrdə siyasət meydanında nələr itirdiyini düşündükcə havalanır, üstəlik uğur sayılacaq nəyinsə olmaması onun təlaşını daha da artırır. A.Quliyev söyləyib ki, Prezident İlham Əliyev 2003-cü ildə AXCP sədri Əli Kərimlinin bu çoxillik xəyallarını tar-mar edib: "Fikir verirsinizsə, beyin radikallaşması məhz bu tarixdən başlayır. Dördüncü, İlham Əliyevin hakimiyyətinin cəmi bir neçə il davam edəcəyinə bəslədiyi ümidlər də alt-üst oldu. Bu illər ərzində digər müxalifət rəhbərlərini seçkidən seçkiyə qabağa verərək sonda hamını sıradan çıxarmaq, ortada tək şanslı lider kimi qalmaq planı daha rüsvayçı formada pozuldu. Nə qədər artım və böyümə görüntüsü yaratmağa çalışsa da, AXCP-nin sıraları get-gedə boşalır, samballı ziyalılar ordusu ona ümumiyyətlə yaxın getmir, perspektivin olmaması qəti həqiqət kimi özünü təsdiqləyir, bu durumda Əli bəy heç olmasa olan-qalan tərəfdarlarını yanında saxlamaq üçün miskin çabalara baş vurmaq halına gəlir".

***Nailə Məhərrəmova***

# Əli Kərimlinin “facebook” “qəhrəmanlığı”

*Fəaliyyətsizliyini ört-basdır etmək üçün sosial şəbəkələrə güc verən “Yurd” şefi virtual aləmdə də fiaskoya uğrayır*

***Son günlər müxalifətin üzqarası Əli Kərimlinin sosial şəbəkə vasitəsi ilə saxta profillər açdırıb, “siyasət yürütməsi” kimsəyə sirr deyil. Lakin bu arada AXCP sədrinin saxtakarlığını sübuta yetirən daha bir maraqlı faktı ortaya çıxıb. Belə ki, bu faktı qeyd etmək yerinə düşər ki, bu günlərdə Ə.Kərimlinin “facebook”dakı çıxışlarından bir neçəsini, AXCP gənclər komitəsinin profilində on-on beş nəfər bəyənsə də, onun öz profilindəki videoçıxışını “1,5 min” nəfər “bəyənib”, üstəlik, “1024” nəfər tərəfindən “paylaşım” olunub (?). Sual olunur: əgər Kərimli öz profilində bəyənmələrin sayı “mini” ötürsə, niyə bu zaman AXCP-yə məxsus digər profillərdə həmin paylaşımların sayı nə üçün on-on beş sayla ölçülür? Əslində, bununla bir daha sübut olunur ki, AXCP sədri yalnız özünə təskinlik verir və insanları saxta rəqəmlərlə aldadır, ya da saxtakarlığını həmin yalanları vasitəsi ilə ictimai rəyə zorla sırımaqla məşğuldur.***

Elə buna görə də, AXCP sədrinin sosial şəbəkələrdəki çağırışları də, nəticəsiz qalmaqdadır. Əxlaqsız Ə.Kərimli hər dəfə hakimiyyətə qarşı müxtəlif ittihamlar irəli sürsə də, onların heç birini sübuta yetirə bilməyib. Çünki bu günə qədər onun maliyyə fırıldaqlarını sübuta yetirən yüzlərlə faktlar ictimai rəyin diqqətinə çatdırılsa da, ona əldə etdiyi milyonlarla manat gəlirin haradan əldə edilməsi barədə çoxsaylı suallar ünvanlansa da, həmçinin, bank maxinasiyaları vasitəsi ilə korrupsiya əməlləri tam şəkildə isbatlansa da, nədənsə, həmin suallara cavab verə bilməyib. Gedib-gəlib, ölkənin neft gəlirləri ətrafında “alimlik” edən AXCP sədri, hələ də anlamır ki, rahat şəkildə müxalifətçilik edib pul qazandığı ölkənin sabitliyi, məhz dövlətin neft və s. gəlirlərindən əldə edilən vəsaitlər hesabınadır. Bu, ona sərf etmir. Çünki özünü müxalifətin “lideri” hesab edir, ona görə də yalan, böhtan və təxribat xarakterli çıxışlar etməyi özünə, necə deyərlər, “borc” bilir.

## Elçibəyə qarşı murdar siyasətin aparıcı “siması”

Onu da xatırlatmaq olar ki, bu, həmin “həqiqət axtarışında” olan Ə.Kərimlidir ki, başının üzərindən asdığı mərhum lideri Əbülfəz Elçibəyin portreti altında oturmasına rəğmən, həmin liderinə qarşı ən çirkin kampaniyalar aparıb, onun ölümünə və həyatını itirməsinə səbəb olub. Əbülfəz Elçibəyə “siflis xəstəsi”, “içki düşkünü və murdar alkaş” tipli ifadələri də, məhz Ə.Kərimli AXCP daxilində yaratdığı qiyamçı “Yurd” qruplaşması, həmin qruplaşmanın əlinə keçirdiyi mətbuatlar vasitəsi ilə ictimailəşdirmişdi. Nəticədə, o, “liderim” dediyi Elçibəyin sədrlik kreslosunu mənəviyyatdan kənar və ləyaqətsizlik yolları ilə ələ keçirdi və indi partiyasında diktatura rejimi qurub, monarxiya idarəçiliyi yürüdür.

Digər bir məqam isə, Ə.Kərimlinin oğlu T.Kərimli xarici ölkədə büdcəsi yüz minlərlə ölçülən ali təhsil müəssisəsində təhsil aldı, arvadı Samara isə biznes şəbəkəsi idarə etməkdədir. Ümumiyyətlə, AXCP-də despot siyasəti yürüdən Ə.Kərimli oğlu Türkel Kərimlini də özü kimi milli satqın və şəxsiyyətsizlik timsalında böyüdüb. Məgər o oğlu Türkel Kərimlini ABŞ-da, bilavasitə Amerikanın erməni lobbisi tərəfindən təşkil olunmuş ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasının Azərbaycan əleyhinə dinləmələrinə göndərərək, qondarma “DQR”in prezidenti Bako Saakyanın oğlunun çıxışına əl çaldırmamışdımı?! Bütün bunlardan sonra Ə.Kərimlinin Azərbaycan xalqı adından danışmağa, ümumiyyətlə, bu ölkədə yaşamağa hüququ varmı?!

Artıq bu sualın da cavabını hüquq-mühafizə orqanları versələr, daha yaxşı olardı. Çünki bu məsələ get-gedə daha çox qabarmaqdadır...




## Əli Kərimlinin “facebook” zombiləri...

Bəli, ən iyrənci də odur ki, Əli Kərimlinin “facebook”da hər hansı bir məsələ barədə yazdığı statusu özlərinə sədr deyil “kral” hesab edən “facebook” nökərləri, daha doğrusu, aftafadayşıyanları “bəh-bəhlə” tərifləyərək, şıllaq atırlar. AXCP-dən partiyadaxili avtoritar idarəçiliyə etiraz edən və nəticədə, oradan qovulan funksioner Ağaşirin Tanrıverdioğlu belə yerdə yaxşı bir fikir bildirib. Sitat: “Kim azad söz yazırsa, parolu oğurlanır. Məmməd İbrahimin parol sındırmaqda olan səriştəsinə bələdəm. Əli bəyin bu işlər üzrə “müşavir”i odur. Ə.Kərimli AXCP-nin yox, bir qrup “zombi”nin kralıdır. Özü istədiyi qaydada partiyanı idarə edir. “Zombi”lər də ona saxta alqışlar yağdırırlar.

Bu gün Ə.Kərimli meydanda deyir ki, “biz azadlıq uğrunda mübarizə aparırıq”. Ancaq o, azadlıq uğrunda mübarizənin necə olmasından, ümumiyyətlə, xəbərsizdir. Çünki onda azadlıq hissi belə yoxdur, özünün təlimatı ilə çıxan “Azadlıq” qəzeti, və bugünkü aqibəti də bəllidir”.

Göründüyü kimi, Ə.Kərimli zamanında və indi də erməni lobbisinə, erməni lobbisinin maliyyələşdirdiyi beynəlxalq təşkilatların pullarına o qədər çox satılıb ki, bu satılmışlıqların sayı-hesabı belə, öz çoxluğundan itib.

## Tarix dəyişmir...

Bu, bir həqiqətdir ki, tarixə qara ləkə olan AXC-Müsavat hakimiyyətinin Əli Kərimlisi, İsa Qəmbəri, Pənah Hüseyni, Arif Hacılısı Azərbaycanın siyasi sistemində, xüsusilə də, sosial şəbəkədə zombiləşmiş qaragüruhçu dəstə satqınların simaları dəyişmir.

Rusların bir sözü var - “Maniya veliçiya”, yəni böyük görünmək maniyası, xəstəliyi. Ə.Kərimli bu xəstəliyin qurbanıdır. Artıq bu xəstəlik səbəbindən yaranmış digərlərinə nifrət hissi bütün cəmiyyətə keçib və bu adamcığaz, artıq siyasi rəqiblərinə deyil, bütün cəmiyyətə, xalqa və millətə nifrət edir. Söz yox ki, ətrafını da o vəziyyətdə saxlayır. Xəstə təfəkkür və qeyd etdiyimiz “maniya veliçiya” məsələsi isə, əslində, Ə.Kərimlini bitirib. Sadəcə, o, siyasi ölümünü dərk etmir. Lakin dərk etməsə belə, bunu ona dərk etdirəcək bir çox reallıqlar, onu qısa zamanda haqlayacaq. Buna isə şübhə yoxdur...

**Rəfiqə HÜSEYNOVA**



## Şəbəkə əxlaqsızı...

**RƏFİQƏ**

***Hər cürə əxlaqsız var. AXCP sədri Əli Kərimli bütün əxlaqsız yolların yolçusudur. Özünün bütün siyasi fəaliyyətini büsbütün sosial şəbəkələr üzərində quran bu satqın və əxlaqsız gecəli-gündüzlü milli və dövlətçilik maraqlarına qarşı dəridən-qabıqdan çıxaraq, böhtan kampaniyası aparır. Necə deyərlər, qaşınmayan yerdən qan çıxarır. Nə bilmişdiniz? Hətta şeytanla da “işbirliyi quran” bu erməni-xislətli Ə.Kərimli bütün erməni üfunəti gələn deşiklərdən çıxır.***

Deyəndə də başlayır özünü “süddən çıxmış ağ qaşıq” kimi təmizə çıxarmağa. Yalansa, sənin zatına lənət! Mən də söz dedim də... Ə.Kərimli nə bilir “zat” sözü nədir. Bu zatıqırıq ancaq Azərbaycanın ildırım sürəti ilə, bəli, ildırım sürəti ilə uğurlarını görüb, içi iylənə-iylənə qalaraq, başlayır sosial şəbəkələrdə çağırışlar etməyə ki, camaat mitinqlərə çıxsın. Ay sənin yalansa zatına lənət! Ancaq nə əldə edibsən? 25 ildən çoxdur ki, o erməni üfunəti gələn ağzından sosial şəbəkələrdə hay-küy salırsan, ancaq qışqırmağın elə özünə qalır. Baxın, əgər yadınızdadırsa, manatın dollara nisbətdə ucuzlaşmasında öz xeyrin üçün istifadə etməyə cəhd göstərdin, süni ajiotaj yaratmaq məqsədini əsas olaraq hədəf götürdün. Nə əldə etdin? Azərbaycan xalqı, yaxşı bilir ki, Ə.Kərimlinin əsl niyyəti nədir. Boğazına güc verərək, hay-haray qaldırdın ki, bəlkə xalqdan dəstək alasan. Ancaq istəkləri hər dəfə daşa dəydikcə, növbəti iyrənc əməllərə əl ataraq, əxlaqsızlığını nümayiş etdirməkdən, usanmır ki, usanmır... Bundan sonra da istəkləriniz daşa dəyəcək. Xalq, Ə.Kərimli, sənin kimi satqın və əxlaqsızı çoxdan tarixin zibilliyinə atıb, üstündən də bir təpik vurub ki, bəsdir!!! Batsın səsin!!!Ancaq qozbeli qəbir düzəltsə də, görünür, Ə.Kərimli kimi xəyanətkar satqın və əxlaqsızı heç qəbir də düzəltməyəcək. Çünki beli əyri doğulub, əyri də qalacaq. Bax, buna görə deyirəm səsin batsın!!! Ay şəbəkə əxlaqsızı! Deyəndə ki, Ə.Kərimli şeytanla “iş birliyi quran”dır, bunu elə-belə demirəm. Baxın, hər şey bir yana, bu adam illərdir Azərbaycanın Avropaya inteqrasiyasının vacib olduğunu təbliğ edir, hakimiyyəti bu məsələdə gecikməkdə ittiham edir, günü bu günsə öz mövqeyinə tam əks-mövqe sərgiləyir. Sual olunur: kimin əlinə oynayırsan, Ə.Kərimli? Bir də, haqq nazilər, amma üzülməz. Bu fikri deməyə haqqım var. Çünki 25 ildən bəri erməni yalı ilə yemlənən sən Ə.Kərimli cinayətkarın, Vətən xaininin adını “siyasi məhbus” qoyaraq, illərdir cinayətkarın müdafiəsinə qalxmısan. Çünki özün də cinayətkar, satılan və satan əxlaqsızsan, özü də, şəbəkə əxlaqsızı. Məqsəd sosial şəbəkələr vasitəsi ilə xarici qüvvələrə nökərçilik etməklə, Azərbaycanın uğurlarına kölgə salmaq, ölkədəki siyasi sabitliyi pozmaqla, qrantlar qoparmaqdır. Bax, yenə də deyirəm: alçaq, batsın sənin səsin, xəstə mafioz!!! Ancaq Ə.Kərimli kimi sosial şəbəkə xəstələri, onu da unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib, özgə yalı ilə yallanmaqla heç nəyə nail ola bilməyib və bundan sonra da nail ola bilməyəcəklər. Çünki beləlləri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxanın gözlərinə qan damar-damar və özgənin yalı ilə bəslənənləri isə tarix heç vaxt bağışlamaz.

# Mingəçevirdə avtomobil qaçıran şəxs saxlanılıb




Mingəçevir şəhər sakini Saleh Rəhimov avqustun 25-də Daxili İşlər Nazirliyinin (DİN) 102 Zəng Mərkəzi ilə əlaqə saxlayaraq, şadlıq sarayларının birinin qarşısında saxladığı “VAZ 2106” markalı avtomobilinin qaçırıldığını bildirib. DİN-in mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a bildiriblər ki, müraciət aidiyyəti üzrə Mingəçevir Şəhər Polis Şöbəsinə yönləndirilib. Polis əməkdaşları tərəfindən dərhal əməliyyat-axtarış tədbirlərinə başlanılıb. “İsti izlər”lə keçirilmiş əməliyyat tədbiri nəticəsində avtomobili qaçıran şəxsin şəhər sakini, 61 yaşlı Damət Həsənov olduğu müəyyən edilib. O, şübhəli şəxs qismində saxlanılaraq polis şöbəsinə gətirilib. Faktla bağlı cinayət işi başlanıb, istintaq aparılır.

# İnsan hüquqları dünyanın aktual problem kimi

***İnsan hüquqları müasir dünyanın ən aktual problemlərindən biridir. İnsan hüquqlarının anlayışı və təbiəti haqqında danışmazdan əvvəl, bu ideyanın tarixi inkişafını nəzərdən keçirmək lazımdır. İnsan hüquqları ideyasının tarixi kökü, təxminən, e.ə.VI-V əsrlərə gedib çıxır. Belə ki, hələ o dövrdə Afina və Romada bu ideyalar meydana gəlməyə başlamışdı.***

Doğrudur, bu fikirlər o zaman insan hüquqları adlanmasa da, onlar öz mahiyyəti etibarilə indiki insan hüquqlarının ilk rüşeymləri idi. Buna misal olaraq, ilk demokratlardan olmuş Afinalı Periklin xalqın xeyrinə həyata keçirdiyi islahatları və ya Qədim Romada plebeylərlə patrisilər arasında gedən mübarizəni göstərə bilərik. Lakin o dövrdə insan hüquqları dedikdə, yalnız quldarlara məxsus hüquqlar göstərilirdi və qulların heç bir hüququ yox idi. Cəmiyyət inkişaf etdikcə, insanlar öz hüquqları uğrunda daha mütəşəkkil mübarizə aparmağa başladılar. Elə bunun məntiqi nəticəsi olaraq,1215-ci ildə İngiltərədə dünya tarixində, insan hüquqlarına dair ilk sənəd olan "Böyük Azadlıqlar Xartiyası (Magna Carta)" qəbul olundu ki,bu sənəd indi də öz əhəmiyyətini qoruyur. Bu sənədin əhəmiyyəti ondan ibarətdir ki, dünya tarixində ilk dəfə olaraq, kral öz hakimiyyətini feodalların xeyrinə məhdudlaşdırırdı. Bundan sonra İngiltərədə insan hüquqları uğrunda mübarizə daha da gücləndi və 1689-cu ildə "Hüquqlar haqqında Bill" qəbul olundu ki, bu da insan hüquları sahəsində bəşəriyyətin daha bir nailiyyəti idi.

Bütün bunlara baxmayaraq, insan hüquları ilk dəfə 18-ci əsrdə öz elmi izahını tapdı. Bu dövrün böyük mütəfəkkirləri Monteskyö, Russo, Hobbs, Lokk və digərləri insanların ayrılmaz, təbii hüquqlarının olduğunu göstərir və deyirdilər ki, bu hüquqları onlardan heç kəs, hətta dövlət belə ala bilməz. 18-ci əsrin bu liberal fikirləri öz əksini 2 əsas sənəddə: 1776-cı ildə ABŞ-da qəbul olunmuş "İstiqlaliyyət Bəyannaməsi"ndə və 1789-cu ildə Fransada qəbul olunmuş "İnsan və vətəndaşların hüquqları haqqında Bəyannamə"də tapmışdır. Dövlətin başlıca vəzifəsi insan hüquqlarını müdafiə etməkdir-İstiqlaliyyət Bəyannaməsinin əsas xüsusiyyəti budur. Bundan başqa, bəyannamədə göstərilir ki, xalq yalnız o hökümətə tabedir ki, həmin hökümət xalqın azad inkişafını təmin etməyə səy göstərir. Bu fikir öz dövrü üçün çox qabaqcıl ideya idi "İnsan və vətəndaşların hüquqları haqqında Bəyannamə"nin ən mühüm xüsusiyyəti onun universal xarakter daşımasıdır. Yəni o, yalnız fransız xalqının deyil, bütün bəşər övladlarının təbii hüquqlarını bəyan edirdi. Burada göstərilirdi ki, insan hüquqlarının unudulması və ya ona biganəlik ictimai bəlaların və hökumətdə korrupsiyanın əsas səbəbidir. Bu fikir, doğrudan da, tarixin inkişafı ilə öz təsdiqini tapdı. 20-ci əsrin ortalarına kimi, insan hüquqlarını hələ də bütün dünya ölkələri qəbul etmirdi. Bu yolda ilk addım BMT tərəfindən atıldı: 1948-ci il aprelin 10-da BMT-nin Baş Assambleyası Ümümdünya İnsan Hüquqları Bəyannaməsini qəbul etdi. Bəyannamə preambula və 30 maddədən ibarət idi. Burada göstərilirdi ki, irqindən, dərisinin, rəngindən, cinsindən, dilindən, əqidəsindən, siyasi mənsubiyyətindən, milli və sosial mənşəyindən, əmlak vəziyyətindən və digər hallardan asılı olmayaraq, bəyannamədə göstərilən hüquqlar bütün insanlara aiddir. Bu bəyannamədən sonra,1966-cı il dekabrın 16-da BMT "Mülki və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" paktlar qəbul etdi ki,bunlar hal-hazırda insan hüquqlarına aid əsas sənədlər sayılır.

Müasir dövrümüzdə insan hüquqlarına aid baxışlar vahid deyil.Belə ki, insan hüquqlarına aid, əsasən, iki nəzəriyyə mövcuddur. Bunlar relyativist və universalist nəzəriyyələrdir. Relyativistlərə görə, insan hüquqları, əsasən, Qərb mədəniyyətinin məhsuludur və bu huquqlar Asiya və Afrika ölkələrində təsdiq edilə bilməz. Onların fikrincə, Qərbdə insan hüququ kimi tanınan hər hansı bir norma digər mədəniyyətlərə malik ölkələrdə tanınmaya da bilər. Onlar bunu mədəniyyətlərin və dinlərin müxtəlifliyi və ölkələrin müxtəlif iqtisadi gücə malik olması ilə əlaqələndirir və belə hesab edirlər ki, bu hüquqlar universal deyil. Universalist nəzəriyyənin tərəfdarları isə göstərirlər ki, insan hüquqları yalnız Qərb üçün deyil, həm də bütün bəşəriyyət üçün qəbul olunan normalardır. Onlar bildirirlər ki, mədəniyyətindən və dilindən asılı olmayaraq, azad yaşamaq, vicdan azadlığı, öz dininə etiqad etmək, işgəncəyə məruz qalmamaq, qanunsuz təqib olunmamaq, öz fikrini azad sürətdə ifadə etmək, dövlət idarəçiliyində iştirak etmək və digər hüquqlar istənilən cəmiyyətdə məqbul sayılır. Doğrudan da, elmi təhlillər göstərir ki, universalistlərin nəzəriyyəsi daha obyektiv və elmidir. İnsan hüquqlarının yaranmasının özünü üç mərhələyə bölürlər:

Birinci mərhələyə 18-ci əsrdə Avropada baş vermiş burjua inqilabları nəticəsində yaranan mülki və siyasi hüquqlar (yaşamaq hüququ, köləliyin ləğvi, işgəncənin ləğv edilməsi, şəxsi toxunulmazlıq hüququ və digər hüquqlar) daxildir. İkinci mərhələyə 19-cu əsrdə sosialist və kommunist ideyaların təsiri ilə yaranan sosial və iqtisadi hüquqları (əmək hüququ, təhsil hüququ, sosial təminat hüququ və digərləri) aid etmək olar.

Üçüncü mərhələyə isə, 20-ci əsrdə yaranmış kollektiv hüquqları aid edə bilərik. Bunlar, əsasən, ətraf mühitin mühafizəsi, xalqın öz müqəddəratını təyin etmək hüququ və digər hüquqlardan ibarətdir.Bu hüquqlar 1955-ci ildə Bandunq konfransından sonra 3-cü dünya ölkələri tərəfindən irəli sürülmüşdür.

Müasir dövrümüzdə insan hüquqlarının təminatı səviyyəsi ölkələrdəki siyasi rejimlərin xarakterini müəyyən edən başlıca amillərdən biri kimi qəbul olunmuşdur. Hələ XIX əsrdə Kant deyirdi ki, insan müəyyən məqsədlərin əldə edilməsi üçün vasitə olmalı deyildir. Onun fikrincə, cəmiyyətdə baş verən bütün dəyişikliklərin və islahatların məqsədi insan olmalıdır.Yəni insan hüquqlarının təmin olunması və insanların xoşbəxtliyi dövlətin və cəmiyyətin məqsədi olmalıdır. Məhz elə bu ideya BMT-nin Nizamnaməsində öz əksini tapmışdır. Orada göstərilir ki, insan hüquqlarının təmin olunması BMT-nin əsas vəzifəsidir. Bu fikir 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasında da təsbit olunmuşdur və konstitusiyanın 12-ci maddəsində göstərilir ki, insan və vətəndaş hüquqlarının və azdlıqlarının təmin olunması dövlətin ali məqsədidir.

İnsan hüquqları dedikdə, elə hüquqlar başa düşülür ki, bu hüquqlar dövlətlə qarşılıqlı münasibətdə hər bir insanın fərdi azadlığa nail olmaqdan, cəmiyyətin təşkil olunmasında iştirak etməkdən ibarət olan əxlaqi və hüquqi aktlardır. İnsan hüquqlarından danışarkən, qeyd etmək lazımdır ki, insan hüquqları, əsasən, dövlət hakimiyyətinin məhdudlaşdırılması hesabına təmin olunur. Lakin dövlətlər heç də öz hakimiyyətlərini fərdin hüquqlarının xeyrinə məhdudlaşdırmaq istəmir. İnsan hüquqları müxtəlif təsnifat sistemlərinə tabedir. Əsas təsnifatlardan biri, bunları bir tərəfdən mülki və siyasi (1-ci nəsil hüquqlar), digər tərəfdən isə iqtisadi, sosial və mədəni hüquqlara bölməkdir (2-ci nəsil hüquqlar). 80-ci illərdə bunlara 3-cü nəsil adlanan hüquqlar da əlavə olunub, bunlara həmrəylik hüquqları da deyilir. Lakin bu 3-cü nəsil hüquqlar haqqında fikir birliyi yoxdur, nələrin bu kateqoriyaya daxil olduğu və bunların hüquqi rejimi mübahisəlidir.

İnsan hüquqlarının 3 nəslə bölünməsi, 1979-cu ildə Strasburqdakı Beynəlxalq İnsan Hüquqları İnstitutunun üzvü, milliyyətcə çex olan Karel Vasak tərəfindən irəli sürülüb. Vasakın bu təsnifatı öz köklərini Avropa hüququndan aldığı kimi, Avropa dəyərlərini əks etdirirdi.

1-ci nəsilə daxil olan mülki və siyasi hüquqlar öz əksini Avropa İnsan Hüquqları Konvensiyasında, UDHR4-in 3 - 21-ci maddələri arasında, habelə, 1966-cı il tarixli BMT Mülki və Siyasi Hüquqlar haqqında Sazişdə (ICCPR) tapıb.

2-ci nəsilə aid iqtisadi, sosial və mədəni hüquqlar isə, UDHR-in 22 - 28-ci maddələri arasında, Avropa Sosial Şərtində, habelə, yenə 1966-cı il tarixində bu hüquqlar üçün, xüsusi olaraq, tənzimlənən "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt"da ("ICESCR5") göstərilib.

> Müasir dövrümüzdə insan hüquqlarına aid baxışlar vahid deyil.Belə ki, insan hüquqlarına aid, əsasən, iki nəzəriyyə mövcuddur. Bunlar relyativist və universalist nəzəriyyələrdir. Relyativistlərə görə, insan hüquqları, əsasən, Qərb mədəniyyətinin məhsuludur və bu huquqlar Asiya və Afrika ölkələrində təsdiq edilə bilməz. Onların fikrincə, Qərbdə insan hüququ kimi tanınan hər hansı bir norma digər mədəniyyətlərə malik ölkələrdə tanınmaya da bilər. Onlar bunu mədəniyyətlərin və dinlərin müxtəlifliyi və ölkələrin müxtəlif iqtisadi gücə malik olması ilə əlaqələndirir və belə hesab edirlər ki, bu hüquqlar universal deyil

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Günəbaxan tumları mədə turşuluğunu tənzimləyir



Günəbaxan tumları essensial yağ turşuları, vitaminlər və mükəmməl mineral qaynağıdır. Tərkibindəki E vitamini və fol turşusu ilə ürək-damar xəstəliklərinin qarşısını alır, antioksidant təsir göstərməklə yanaşı, orqanizmi sərbəst radikallardan qoruyur. Həmin tumlar hüceyrələrə dəyə biləcək zərəri aradan qaldırmaq və beyin sağlamlığını qorumaq qabiliyyətinə malikdir.

Günəbaxan tumunun tərkibində olan təbii fol və yağ turşuları damar xəstəliklərinin sağalmasına kömək edir, bağırsaqlarda olan toksinlərin orqanizmdən xaric olunmasına yardım edir və bununla da xərçəng riskini və xolesterolu azaldır.

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov AZƏRTAC-a deyib: "Günəbaxan tumlarının insan orqanizmi üçün bir neçə əhəmiyyəti var. Həzm prosesini yaxşılaşdırır, mədə turşuluğu yüksək olanda prosesin tənzimlənməsinə səbəb olur və doyma hissi yaradır. Müəyyən müddət qəbul edəndə onun yaratdığı doyma hissi qida qəbul olunmasına ehtiyac yaratmır və bu, çəkinin azalmasına səbəb olur".

Günəbaxan tumları orqanizmdə olan iltihab əlamətlərinin də aradan qaldırılmasında güclü təsirə malikdir. Tərkibindəki maqnezium və kalsium sümük sisteminin möhkəmlənməsinə yardım edir, sümük toxumasının əriməsinin qarşısını alır. Bu bitki əzələlərin rahatlaşmasına səbəb olur, qan təzyiqini aşağı salır, immuniteti artırır. Günəbaxan tumları saçların uzanması üçün lazın olan vitamin və minerallarla zəngindir. Protein qaynağı olan günəbaxan tumları saçların canlılığını artırır, dərinin tez qocalmasını tənzimləyir.

# Saqqız çeynəməyin xeyri və ziyanı



Araşdırmalara görə, bir nəfər il ərzində təxminən 300 ədəd saqqız çeynəyir. Bəs onun orqanizmə hansı təsiri var?

Saqqız çeynəyib atmaq üçün olan maddədir. Əvvəllər saqqız ağac qabığından hazırlanan qətrandan düzəldilirdi, müasir dövrdə isə bəzi dadlandırıcı - qliserin, yumşaldıcılar və boyayıcı rəngdən istifadə edilməklə müxtəlif saqqız növləri hazırlanır.

Həkim-diyetoloq Ləman Süleymanovanın AZƏRTAC-a verdiyi məlumata görə, aparılan araşdırmalara əsasən saqqız çeynəməyin bir sıra faydası var: "Onlardan ən əsası gərginliyin və stressin azaldılması kimi psixoloji təsirlərdir. Gün ərzində yeməkdən sonra saqqız çeynəmək diş və ağız təmizliyi üçün faydalıdır. Eyni zamanda yaddaşı və motivasiyanı artırır, kalori yandırmağa və beləliklə arıqlamağa kömək olur. Lakin uzun müddət saqqız çeynəməyin ziyanı da var. Həkim-diyetoloq deyib: "Saqqız damarların qan dövranını yaxşılaşdırır və dişlərin dibini möhkəmləndirir. Uzun müddət saqqız çeynəmək mədənin eroziyasına və iltihabına səbəb olur, hətta qastrit yarada bilər". Uşaqdan böyüyə hər kəs müəyyən vaxtlarda saqqızdan istifadə edir. Lakin onu çeynəyərkən bir sıra qaydalara əməl etmək də məsləhətdir.

# 145 yaşlı ingilis futbol klubu dağılır



İngiltərənin "Bolton" klubu fəaliyyətini dayandırmaq təhlükəsi ilə üzləşib. "Sky Sports" xəbər verir ki, ölkənin ən köklü klublarından biri ciddi maliyyə problemi ilə üzləşib. Bu səbəbdən "Bolton"un dağılması ehtimalı yüksək görünür. Avqutsun 24-də klubun satışı ilə bağlı növbəti sövdələşmə baş tutmayandan sonra İngiltərə Futbol Liqası "Bolton"a bu ayın 27-dək vaxt qoyub. Çərşənbə axşamına qədər müştəri tapılmasa, Bolton şəhərinin eyni adlı təmsilçisi ləğv ediləcək.

Qeyd edək ki, 1874-cü ildə yaradılan "Bolton" son olaraq 2011/2012 mövsümündə İngiltərə Premyer Liqasında çıxış edib. Klub 4 dəfə ölkə kubokunu, 1 dəfə isə Superkuboku qazanıb. Hazırda "Bolton" birinci liqada oynayır.



# "Bizi Azərbaycanla çətin oyun gözləyir"



Xorvatiya millisinin futbolçusu Borna Barişiç Avro-2020-nin seçmə mərhələsində Slovakiya və Azərbaycanla oyunlar öncəsi fikirlərini bildirib. "Reyncers"in müdafiəçisi klubun saytına açıqlamasında sözügedən görüşlər haqda da danışıb: "Ölkəm üçün oynamaq mənim üçün əhəmiyyətlidir. Bizi qarşıda Slovakiya və Azərbaycanla çətin matçlar gözləyir. Bu həftə "Reyncers"də mənə uğurlu oldu. İndi milli ilə qarşıda böyük həftə var".

Qeyd edək ki, Xorvatiya sentyabrın 9-da Bakıda millimizin qonağı olacaq.



# Xorvatiya millisi Bakıya ciddi itki ilə gəlir

Futbol üzrə Xorvatiya millisi "Avro 2020"nin seçmə mərhələsi çərçivəsində Azərbaycan ilə oyun öncəsi itki ilə üzləşib. Belə ki, Almaniyanın "Hoffenhaym" komandasında çıxış edən Andrey Kramariç zədələnib və yaxın vaxtlarda futbolçunun əməliyyat olunacağı bildirilir.

Daha öncə Xorvatiya millisinin baş məşqçisi Zlatko Daliç futbolçunu ehtiyat heyətə dəvət etmişdi. Qeyd edək ki, Azərbaycan-Xorvatiya oyunu sentyabrın 9-da "Bakcell Arena"da keçiriləcək. Matça saat 20:00-da start veriləcək.

# İranda qadınların stadionlarda futbol izləmələrinə icazə verilib



İranda qadınların stadionlarda futbol matçlarını izləmələrinə icazə verilib. AZƏRTAC xəbər verir ki, bu barədə İranın İdman və Gənclər nazirinin müavini Cəmşid Tağızadə məlumat verib. O bildirib ki, qadınların oktyabrın 10-da Tehranın "Azadi" stadionunda İran və Kamboca milli komandaları arasında keçiriləcək oyunu izləmələrinə icazə verilib.

Qeyd edək ki, bu ilin iyununda FIFA-nın prezidenti Canni İnfantino İran hökumətinə ünvanladığı məktubda qadınların futbol oyunlarını izləmək üçün stadionlara buraxılmasını tələb edib. Məktubda bildirilib ki, əgər İranda bu qadağa aradan qaldırılmasa, bu ölkəyə qarşı sanksiyalar tətbiq ediləcək.

İranın din xadimləri bildirirlər ki, stadionda oyunu izləyən kişilər emosiyalara qapılaraq müxtəlif təhqiredici sözlərdən istifadə edirlər. Qadınlar bu sözləri eşitmək məcburiyyətinə qalırlar. Bu isə İslam əxlaqına ziddir. Ona görə də İranda qadınların futbol oyunlarına buraxılması qadağan edilib.

Lakin bu qadağanın İran-Kamboca oyunundan sonrakı görüşlərə də şamil edilib edilməyəcəyi dəqiq deyil.

# İtaliyalı məşhur motosikletçi ağır kəllə-beyin travması alıb



"MotoGP" üzrə dünya çempionatında çıxış edən "Dukati" komandasının italiyalı motosikletçisi Andrea Dovitsiozo Böyük Britaniya Qran-Prisi zamanı ciddi qəza törədib. Klubun mətbuat xidmətinin məlumatında deyilir ki, qəzadan sonra xəstəxanaya yerləşdirilən italiyalı sürücünün ağır kəllə-beyin travması aldığı bildirilib. İtaliyalı idmançı "Yamaha"nın fransalı sürücüsü Fabio Kuartararo ilə toqquşaraq asfalta yıxılıb və onun motosikleti yanıb.

Qeyd edək ki, 20 dövrədən ibarət motoyürüşdə "Suzuki" komandasının üzvü Aleks Rins birinci olub. "Honda"nın üzvü, beşqat dünya çempionu Mark Merkes yarışı ikinci, Maverik Vinyales ("Yamaha") isə üçüncü pillədə başa vurublar.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**